**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İSLAM BİOETİKASI: DİNİ-ETİK KONTEKSTDƏN MÜASİR İCTİMAİ PROBLEMƏ QƏDƏR

İxtisas : 7212.01 – Etika
Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Qəmərxanım Aydın qızı Cavadlı**

Fəlsəfə elmləri doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI - 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun "Etika" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçilər: Tarix elmləri doktoru, professor,
**Allahşükür Hümmət oğlu Paşazadə**

Fəlsəfə elmləri doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü fəlsəfə elmləri doktoru, professor
**Sevda Yusif qızı Məmmədəliyeva**
fəlsəfə elmləri doktoru
**Afaq İsa qızı Əsədova**
fəlsəfə elmləri doktoru, professor
**Mina Telman qızı Hacıyeva**
Professor dr **Cevdet Kılıç**
**(Türkiyye Cumhuriyyəti)**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya şurası

Dissertasiya Şurasının sədri: Fəlsəfə elmləri doktoru, professor

**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya Şurasının elmi katibi: Fəlsəfə üzrə fəlsəfə doktoru dosent

**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru, professor

**Əlisa İsa oğlu Əhmədov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı** Bioetika fəlsəfi fikrin yeni başlanğıc nöqtəsini təşkil edən fənlərarası elm sahəsidir. Onun formalaşması və inkişafı ümumilikdə ənənəvi etikanın və əlahiddə olaraq tibbi etikanın transformasiyası ilə sıx əlaqəlidir. Bioetikaya olan maraq, hər şeydən əvvəl, müasir cəmiyyətlərdə insan hüquqlarına, yeni texnologiyaların və tibbi vasitələrin insanlar üzərində sınanmasına yönəlmiş qlobal ictimai marağın göstəricisidir ki, bu da özlüyündə ciddi hüquqi və mənəvi tənzimlənmə tələb edən bir sıra problemlər əmələ gətirmişdir və bu problemlərin öyrənilməsi müasir etika elminin qarşısında duran vəzifələrdəndir.

Müasir dünya üçün böyük əhəmiyyət kəsb edən bioetikanın nəzəri və təcrübi təməli 1946-cı ildə keçirilmiş Nürnberq Məhkəməsində – nasist həkimlərin insanlığa qarşı görünməmiş vəhşi əməllərinin ifşası zamanı qoyulmuşdur. Məhkəmənin gedişi nəticəsində məlum olmuşdur ki, faşizm ideyasına xidmət edən həkimlər tərəfindən "cəmiyyət üçün yararsız" sayılan 70 min insanın, o cümlədən əqli və fiziki çatışmazlıqlardan əziyyət çəkənlərin, yəhudilərin, qaraçıların, nasizmə qarşı barışmaz mövqedə dayanan azad fikirli insanların xüsusi amansızlıqla qətlə yetirilməsi üçün genişmiqyaslı evtanaziya proqramları hazırlanmış və həyata keçirilmişdir. Müəyyən edilmişdir ki, bir sıra həkimlər Hippokrat andına zidd olaraq hərbi və mülki əsirlər, nasistlərin işğal etdikləri ölkələrdən deportasiya olunmuş əhali üzərində ağlasığmaz tibbi-bioloji təcrübələr aparmışlar. Məhz Nürnberq prosesindən sonra bəşəriyyət ilk dəfə olaraq "həkim vicdanı" və "tibbi etika" anlayışlarının patetikasını şübhə altına aldı.

Araşdırmalara görə hesab olunur ki, bioethics ifadəsini ilk dəfə 1927-ci ildə alman teoloqu pastor Fris Yar işlətmişdir. Əslində tibbi etika dalğasında yaranan Bioetika müxtəlif elmi-tədqiqat sahələrini birləşdirən mənəvi-etik və fəlsəfi elm kimi keçən əsrin 60-cı illərinin sonu – 70-ci illərin əvvəllərində yaranmış, 1971-ci ildə Van

Renseller Potter tərəfindən “bioetika” termini elmi ictimaiyyətə təklif olunmuşdur. Potter yeni termini cəmiyyətə və elmi mühitə təqdim edərkən xüsusi vurğulayırdı ki, bioetika *“ özündə bioloji bilikləri və bəşəri dəyərlər sisteminin idrakını ehtiva edən yeni elm” olmalıdır” [1]. “Mən Bio sözkökünü bioloji biliklərin, canlılar sistemi barədə elmlərin simvolu kimi, ethics ifadəsini isə bəşəriyyətin mənəvi dəyərlər sisteminin dərk edilməsi rəmzi kimi seçmişəm”* [2]. Potter iki bilik sahəsi – təbiət və humanitar elmlər arasında yaranmış kəskin ziddiyyətlərin bütün ekosistemi dağıtma təhlükəsi barədə xəbərdarlıq edirdi. Bəşər mədəniyyətinin geniş mənada əsas varlığını təşkil edən etik dəyərlərin və bioloji faktların qütbləşməsi, Potterin fikrincə, Yer üzərindəki həyatın bitməsi ilə nəticələnən elmi-texniki proseslərə səbəb ola bilərdi. Məhz buna görə o, bioetikanı science of survival – qurtuluş elmi adlandırırdı.

Sonrakı dönəmin hadisələri – gen mühəndisliyi sahəsində bioloji silahların hazırlanması, insan və heyvanların, hətta bioloji həyatın statusunun dəyişdirilməsi barədə yayımlanan məlumatlar cəmiyyətdə böyük rezonansa səbəb olaraq fəlakət xarakterli ideyalar və qorxular yaratmağa başladı. Beləliklə, Potter bioetikasının üzərində elmi müəmma ideyası formalaşdı ki, bu da bioetikanın “ikili mənşəyi” haqqında yeni mülahizələrə yol açdı. Həmin illərdə demoqrafiya problemləri ilə məşğul olan və ABŞ-ın Kennedi adına Etika İnstitutunun *(Kennedy İnstitute of Ethics)* yaradıcısı, holland mənşəli həkim Andre Hellegers bioetikanı bir elm kimi mayevtika ilə eyniləşdirir, yəni bioetika yalnız tibb, fəlsəfə və etika ilə müqayisədə və dialoq prosesində məna kəsb edən bir elm sahəsi olaraq dəyərləndirilir [3]. Hellegersə görə, bu tədqiqat sahəsinin predmeti klinik praktikada nəzərdə tutulmayan etik aspektlər ola bilərdi. Şübhəsiz ki, Hellegers bioetika termininə akademik struktur verərək onu biotibbi elmlər sahəsinə, siyasətə və kütləvi informasiya va-

[1] Поттер В.Р. Биоэтика: Мост в будущее / Киев. -2002,-с.9.

[2] Там же; с.10.

[3] Принципы биоэтики. Биоэтика: принципы, правила, проблемы / под ред. Б.Юдина. Москва: Эдиториал УРСС, -1988, - с.5-22.

sitələri sisteminə daxil etdi. Məhz onun sayəsində bioetika elmi mühit tərəfindən tibbi və etik idrakı birləşdirən xüsusi bir elm kimi tanınmağa başlandı. Bundan başqa, məhz Hellegers bu yeni elmin spesifik metodologiyasını işləyib hazırladı və sübuta yetirdi ki, həkim-bioetik etika məsələlərində ənənəvi moralistdən daha çox səlahiyyəti olan ekspertdir, çünki bioetika anlayışı "həkim əxlaqı" ifadəsinin əvəzedicisidir.

Hellegers Potterin ideyalarından bəhrələnərək bioetikanın yeni və daha güclü elmi konsepsiyasını yaratdı. Əlbəttə, Potter bioetikası özünün əhəmiyyətini itirmədi, çünki ilkin anlayışda bioetika biosfera və insan arasındakı qarşılıqlı münasibətləri təhlil etməyə cəhd göstərirdi. Potter həmçinin ətraf mühitin bioetikasını, bir növ ekoloji mədəniyyət nəzəriyyəsini də işləyib hazırlamışdı. 1999-cu ildə Kosta-Rikada çıxış edərkən Potter bir daha vurğulayırdı ki: "Bioetikanı dözümlülük, məsuliyyət və səlahiyyət anlayışlarını özündə birləşdirən etik təlim, həmçinin bütün mədəniyyətləri və humanizm məfkurəsini ehtiva edən fənlərarası elm sahəsi kimi qəbul edin". Bu rakursdan baxdıqda, bioetika etik-hüquqi xarakterli problemli vəziyyətlərə, elmi-texniki inkişaf fonunda baş verən ekoloji fəlakətlərə, klinik təcrübələrdə yol verilən həkim xətalarına sistemli şəkildə cavab verən bir elm sahəsidir. Mənəvi-etik problemlərin çoxluğu sayəsində bioetika ictimai-siyasi sahələrlə yanaşı, həm də biosiyasət, bioteologiya kimi yeni elmi cərəyanları da təmsil edə bilir.

Bioetika bütün kompleks yanaşmalardan öncə fəlsəfə və etikanın tərkib hissəsidir. Bildiyimiz kimi, "dünyagörüşü" termini fəlsəfəyə aiddir və insanın ətraf mühitə münasibəti, insanın dünyadakı yeri və vəzifələri kimi məsələlərə aydınlıq gətirir. Eynilə etika dünyabaxışlarında mənəvi kontekstə söykəndiyi kimi, bioetika da insanlara və bütün canlılara münasibətdə əxlaqı və mənəviyyatı önə çəkən dünyagörüşü sistemidir. Əsrlər boyu cəmiyyətlərdə belə bir fikir formalaşmışdır ki, insan bütün varlıqlardan üstün olduğu üçün təbiəti və canlı aləmi istədiyi kimi istismar edə bilər. Bu növ dünyagörüşü antroposentrist adlanmış və XX əsrdən etibarən kainat,

təbiət və cəmiyyət münasibətlərinə dair yeni etik sistemin – bioetikanın yaranmasına təkan vermişdir.

Keçən əsrin 90-cı illərindən başlayaraq bioetikanın nəzəri və təcrübi hüdudları genişlənməyə başlayır – indi artıq tibbi əxlaq kontekstinə hüquq, fəlsəfə, din və psixologiya kimi nəhəng substantlar daxil olmuşdur. Ümumiyyətlə, bioetik biliklərin ümübəşəri əsaslarına üç vacib yönümü – elmi, ictimai və mənəvi dəyərlər konsepsiyalarını aid edirlər. Bunlardan birincisi olan **elmi konsepsiya** yeni biotibbi texnologiyaların yaranması ilə əlaqədardır. Transplantasiya, reanimasiya, süni mayalanma, gen terapiyası müasir tibbi praktikanın bir çox ölkələrdə mövcud olan konkret istiqamətləridir. Elmi biliklər,ələlxüsus, tibbi-bioloji biliklər öz mahiyyəti etibarı ilə universal və ümumi istifadə üçün məhdudiyyətsiz olurlar.

Onları tənzimləmək, cəmiyyətin şüurunda müsbət qarşılanmasını təmin etmək naminə ictimai konsepsiyanın – hüquqi baza, sosial strukturlar, təbliğat və kütləvi informasiya vasitələrinin metodoloji nəzəriyyəsini və praktik işləmə mexanizmini tətbiq etmək lazım gəlir. Bu zaman hər bir nəzəri konsepsiyada mövcud olan “əyləclərdən” biri – dini-mənəvi dəyərlər konsepsiyası ortaya çıxır ki, onu nəzərə almamaq istənilən cəmiyyət üçün sosial, əxlaqi və hətta siyasi problemlər toplusuna çevrilə bilər. Bizim tədqiqat mövzusunun əsas məqsədi qlobal bioetikanın və biotexnoloji nailiyyətlərin inkişafı dövründə bütün dinlərin və özəlliklə İslamın dini-mənəvi dəyərlər konsepsiyasının işlənib hazırlanmasına münasibət bildirməkdir.

Azərbaycanda bioetikaya münasibət ölkəmiz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra, yəni keçən əsrin 90-cı illərindən etibarən formalaşmağa başlamışdır. Bioetik fikrin inkişafına təkan verən amil - 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 41-ci maddəsində vətəndaşların sağlamlığının qorunması hüququnun təsbit edilməsidir. Bioetikanın Azərbaycanda inkişafına dəstək verən beynəlxalq qurum UNESCO-dur. UNESCO - Azərbaycan əlaqələrinin inkişafında ən mühüm addım Azərbaycan Prezidenti Heydər Əliyev 1993-cü ilin dekabr ayında

Fransada rəsmi səfərdə olarkən bu qurumun baş direktoru Federiko Mayorla görüşü zamanı atılmışdır. Görüşdə tərəflər öz aralarında əməkdaşlığın genişlənməsi məsələsini və onun sonrakı inkişafının perspektiv planlarını müzakirə etmişlər. UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması üçün lazımi addımlar atılmış və Ümummilli Lider Heydər Əliyev bununla bağlı 1994-cü il fevralın 21-də sərəncam imzalamışdır. Bundan sonra respublikanın müvafiq nazirlik və idarələrinin rəhbərlərindən, ziyalılardan və ictimaiyyətin digər nümayəndələrindən ibarət Milli Komissiyanın 25 nəfərlik tərkibi və daimi katibliyi formalaşdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, eləcə də UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səhiyyəyə və təbabətə ciddi diqqət ayırdıqları bir zamanda tibbi hüquq və bioetika sahəsində olan boşluqların aradan qaldırılması, görülən böyük işlərin nəticəsiz qalmaması üçün hüquqi və etik normaların inkişafına da lazımi diqqət yetirmək gərəkdir. Etiraf edək ki, bu sahədə bir çox etik və hüquqi normaların hazırlanması istiqamətində elmi tədqiqatların və araşdırmaların aparılmasında digər ölkələrə nisbətən xeyli gecikmişik. Özəlliklə bioetikanın dini-etik və dini-hüquqi tərəfləri sahələrində ölkəmizdə hələ də heç bir ciddi elmi araşdırma və yaxud tədqiqat aparılmamışdır.

Müasir vəziyyət dini-etik prinsiplərə əsaslanan yeni elmi konsepsiyanın yaranmasını, özəlliklə bir sıra fundamental elm sahələrinin – fəlsəfənin, etikanın, sosiopsixologiyanın, dinşünaslığın, tibbin və hüququn müdaxiləsini tələb edir. Prof. İ. Məmmədzadənin qeyd etdiyi kimi: *"Bu sahələrdəki bir sıra nailiyətlər fənlərarası tədqiqatların inkişafına rəvac verə bilər. Müxtəlif elmlərin nümayəndələrinin əməkdaşlığı, müxtəlif mənbələrdən maliyyələşmə, texnologiyaların tətbiq sərhədləri və s. məsələlər açıq-aşkar etik aspektə malikdir və yalnız bu məqamın anlaşılması şəraitində həll oluna bilər. ..Təbii ki, bioetika problemlərinə maraq bizim alimlərimizin – filosofların və tibb işçilərinin – müasirliyin meydana çıxar-*

*dığı problemləri təkbaşına həll etməyin mümkün olmadığını dərk etmələri ilə bağlıdır"* [4]. Məhz belə nəzəri konsepsiyaları diqqətə alaraq, təqdim olunan dissertasiya işində müqayisəli təhlil və universal tədqiqat metodları ilə dünya dinlərinin, ələlxüsus İslam dininin bioetika problemlərinə münasibəti tədqiq olunur ki, bu da işin aktuallığını əks etdirir.

Bioetika və onun təcrübi problemləri bu gün bütün bəşəriyyəti əhatə və narahat edir. İnsan bir fərd olaraq öz şərəf və ləyaqətinə xələl gətirmədən, ilahi və dünyəvi hüquqlarını pozmadan yaşamaq, ailə qurmaq, fəaliyyət göstərmək istəyir. Onun bu təbii istəkləri hüquqi və ictimai baxımdan tənzimləndiyi kimi, dini və mənəvi-əxlaqi baxımdan da dəstəklənməlidir. Dünya dinlərinin bioetikaya münasibəti məhz əxlaqi kontekstin təsbitlənməsi üzərindədir. İslam dini də bugünkü müasir dünyada əxlaq prinsiplərinin vacibliyini, milli-mənəvi dəyərlər sistemini qorumağa çalışır və buna görə özünün təməl mənbələrində - Qurani-Kərim və Peyğəmbər (s) hədislərində problemin mahiyyətini açıqlayan müddəalarla çıxış edir.

Bu gün Azərbaycan dövləti özünün yeni tarixi inkişaf dövrünə - sosial həyatın bütün sahələrində köklü dəyişikliklərin aparılması mərhələsinə qədəm qoymuşdur. Müasir dövr təkcə sosial-iqtisadi münasibətlərin dəyişməsi ilə fərqlənmir, eyni zamanda ölkənin uzun illlərdən bəri formalaşmış ideoloji siyasətində, elmi və dini təfəkküründə, cəmiyyətin dünya birliyinə inteqrasiyasında və kommunikativ proseslərdə də geniş miqyasda irəliləyişlər təsbit olunur. Azərbaycan dövlətinin tarixi köklərinə, milli-mənəvi dəyərlərinə, İslam mədəniyyətinə qayıdışı elm və din arasında qarşılıqlı anlaşmanın, fəlsəfi fikir mübadiləsinin, tarixlə müasirliyin sintezinin mümkünlüyünə şərait yaradır.

Bu tədqiqatın aktuallığı Azərbaycanın elmi və dini mühiti üçün konsensus xarakteri daşımasındadır. Elm adamları bu əsərdə elmi nailiyyətlərə, tibbi-bioloji innovasiyalara dinin etik baxımdan prinsipial münasibətini gördükləri kimi, din adamları da müasir elmi ixtiraların, biotexnoloji yeniliklərin müsbət və mənfi tərəflərini öz-

[4] Мамедзаде И.Р. Введение в этику/ Баку,-изд.Муаллим,-2004,- с.129.

ləri üçün açıqlaya bilərlər. Müasir dövrdə yaranan sekulyar bioetika problemlərinə münasibəti İslam fiqhi baxımından əlahiddə şəkildə şərh etmək – müxtəlif dini məzhəb və cərəyanların populyar əxlaq məsələlərinə münasibətini sərgiləmək məqsədi daşıyır. Biotibbi texnologiyaların yaratdığı yeni etik problemlərin həlli üçün əsrimizin müsəlman hüquqşünasları və fiqh alimləri mütəmadi görüşlər keçirir, müəyyən hökm və qərarlar hazırlayırlar. Bu hökm və qərarların əhatə və təsir dairəsi barədə mülahizələr Azərbaycan müsəlmanları üçün də böyük maraq kəsb edir. Tibbi əxlaqa dair şəxsi suallarına cavab axtaranlar bu tədqiqat işində nəinki müxtəlif dinlərin, eyni zamanda İslamın müxtəlif məzhəb və təriqətlərinin də mövqeyi ilə tanış ola bilərlər. Tədqiqat işinin özəl cəhəti ondadır ki, o, müxtəlif elmi və dini dünyagörüşlərinin nəzəri konsepsiyasını sistemləşdirə bilmiş və eyni zamanda, elmi-populyar ədəbiyyatın yeni bir nümunəsini təqdim etmişdir.

**Mövzunun işlənmə dairəsi.** Dissertasiya işinin yazılmasında bizim üslub cəhətdən mövqeyimiz ciddi obyektivlik tələblərindən irəli gəlmişdir. Tədqiqatın konkret tələblərinə uyğun olaraq işə müxtəlif yönümlü ədəbiyyatdan istifadə edilmişdir. Buraya Qurani-Kərim və hədislərlə yanaşı, Tövrat, İncil və digər dini kitablardan, məxəzlərdən nümunələr, İslam tarixi, fəlsəfəsi və hüququ ilə bağlı şərqşünas alimlərin və din xadimlərinin əsərləri, müasir Qərb, Rusiya və Türkiyə alimlərinin bioetika problemləri və dini sosiologiyaya dair araşdırmaları, fəlsəfi fikir və etika elminə dair Azərbaycan alimlərinin tədqiqat işləri daxildir. Dissertasiyada ümumi bioetika nəzəriyyəsinin tarixindən – akad. V. Məmmədəliyev, M. Əliyeva, V. Məmmədov, A. Mustafayeva, Z. Muhammedova, A. Dayri, J. F. Kollanj, F. Kondratyev, A. Qiqi, V. Potter, E. Sqreçça, B. Ştaynbok, V. Tambone, F. B. Hameda, K. Hellouell kimi alimlərin elmi araşdırmalarından, dini-etika fəlsəfəsinə dair A. Akseki, M. Bayrakdar, R.Əliyev, H. Karaman, M. M. Kani, İ. Məmmədzadə, V. Qaradja, K. Platonov, A. Şveyser, A. Zərrinkub kimi filosofların, İmam Buxari, Təbətəbayi, Sübhani, Qumi, Şeyx Səduq, Fazil Lənkərani, Ömər Nasuhi Bilmən, Məhəmməd Həmidullah, Şeyxü-

lislam Allahşükür Paşazadə və bir çox şəriət alimlərinin elmi-dini əsərlərindən, hökm və risalələrindən istifadə edilmişdir. Mütəxəssislərin baxış və müddəaları tədqiqatda düzgün istiqamət götürmək və məsələlərin hansı səpkilərdə qoyulmasını müəyyənləşdirmək işində müəllifə böyük köməklik göstərmişdir. İşdə həmçinin fəlsəfə və etikaya dair müxtəlif yönümlü ədəbiyyatdan da istifadə edilmişdir [5].

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, dini-etik kontekstlərin müasir bioetikaya şamil edilməsi və problemin elmi cəhətdən öyrənilməsi istiqamətimdə fəaliyyət göstərən müsəlman dini təsisatları son zamanlar elmi nəşrlərin və internet saytların artırılmasına diqqəti yönəltmişlər. Mövzu üzərində işlərkən bir sıra məqamlarda bioetikaya dair forum saytlarından istifadə olunmuş, mənbə göstərilməklə bəzi informasiyaların işə əlavə edilməsi məqsədəuyğun sayılmışdır.

[5] Bax: Алиева М.А. Эвтаназия и проблема гуманности в медицине / автореферат дис.кан.филос. наук. Баку,-2005,-25 с. Məmmədəliyev V. Quran və elm / B; Qismət,- 2006,- 128 s. Məmmədov V., Məmmədov R., Mustafayeva A. Beynəlxalq Konvensiya təcrübəsi və bioetika haqqında Azərbaycan Respublikası qanunvericiliyinin yaradılması / (elektron resurslar) 29.11.2011.sayt www.ihr-az.org // Abdel Halem, Harfiyah (editor), Islam and the Enviroment / London,-Ta-Ha Publishers,-1998/ Zeyno Baran. Sitizen Islam: The Future of Muslim Integration in the West – NY the Continiuum International Publishing Group,-2011,-197 p. Колланж Жан-Франсуа. Биоэтика и протестантизм // (Проект: образование) Сайт Рос. Комитета по биоэтике при UNESCO – 16.12.2009. - URL: http://www.bioethics.ru/rus/projects/id/239/. Дайри Ахмед. Новая эра в биомедицине: какова позиция мусульман? // URL: www.islamonline.net Гиги Альбер. Иудаизм и биоэтика // (Проект: образование) Сайт Рос. Комитета по биоэтике при UNESCO, - 16.12.2009. – URL: http://www.bioethics.ru/rus/projects/id/311/ Мухамедова З.М. Исламская биоэтика в историческом аспекте // Сайт Ташкентской Медицинской Академии: URL: www.rpam.uzsci.net Поттер В.Р. Биоэтика: мост в будущее / В. Поттер. – Киев: - 2002. -316 с. Сгречча Э. Биоэтика / Э. Сгречча, В. Тамбоне. - Учебник. Пер. с итал. – М: Библейско-богословский институт св. Апостола Андрея, - 2002. - 420 с. Шюон Ф. Понять Ислам // Главы из книги в журн. «Вопросы философии» - № 7-8 / 1994. Akseki A.H. Ahlak İlmi ve İslam Ahlakı / A. Akseki - Ankara: Nur yayınları-1991.-322 s. Bayrakdar M. İsalm Felsefesine Giriş / M. Bayrakdar - 5. Baskı. Ankara: TC Diyanet Vakfı yayınları, - 2003.-314 s. Karaman H. Aile İlmihalı / Hayrettin Karaman.- İstanbul: Timaş Yayınları, -2011. - 498 s. Şeyxülislam A. Paşazadə. Qafqazda İslam./ A. Paşazadə - Bakı: Azərnəşr, -1991. - 224 s. Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında / İ. Məmmədzadə - Bakı: Elm və təhsil, - 2020. - 198 s. Гараджа В. Религиоведение (Социология религии) / В.Гараджа. - 2-е издание. – Москва: Аспект Пресс, -1995. - 351 с. Зарринкуб А. Хосейн. Исламская цивилизация / А. Зарринкуб. (пер. с фарси) - Москва: Андалус, -2004,- 237 с. Швейцер А. Благоговение перед жизнью / А. Швейцер. - Москва: Прогресс, - 1992,- 575 с. Məhəmməd bin İsmail əl-Buxari. Peyğəmbərin əxlaqı / Buxari - (tərcümə Ə.Musayev). Bakı:İpəkyolu, - 2009. - 519 s. Əbdülhəlim əbu Şəqqə. Peyğəmbər dövründə qadın azadlığı /Ə.Şəqqə. I cild. – B: İdrak, - 2014, 514 s. Səhih qüdsi hədislər / Toplayan: R.İsbarxanlı. II nəşr. – Bakı: Zərdabi LTD, -2011.- 218 s. Lənkərani Məhəmməd Fazil Muvəhhidi. Cameul-məsail / F. Lənkərani.- İRİ-Qum: Əmiri-ələm nəşriyyatı, I cild - 530 s.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini müsəlman teoloji məktəbinin müasir qollarından olan İslam bioetikasının qlobal biotexnoloji innovasiyaları ilə uzlaşması problemi təşkil edir. Tədqiqatın predmetinə fəlsəfi-etik və ictimai-siyasi problemə çevrilmiş bioetika məsələləri daxildir.

**Tədqiqat işinin əsas məqsəd və vəzifələri** qlobal bioetika problemlərinə fəlsəfi yanaşmanın, dini və etik baxışların mövcudluğu və müxtəlifliyi ilə tanış etməkdir. Bildiyimiz кimi, hər hansı bir ictimai reallıq fraqmentini ictimai reallıq obyektinə çevirmək və predmetini müəyyənləşdirmək - problemli vəziyyətin artıq mövcud olduğunun göstəricisidir. İctimai problem mövcuddursa, onun təbiəti, yaranma amilləri, təcrübəyə məlum olan və olmayan tərəfləri araşdırılmalıdır. Məhz problemli vəziyyət elmi predmeti təyin edir və sosial reallığın lokal çərçivəsində tədqiqatın obyektini müəyyənləşdirir. Bu mənada müraciət olunan mövzu Azərbaycan cəmiyyətində, özəlliklə dini düşüncəyə sahib mühitimizdə problemlərin mövcudluğunun göstəricisidir. Bioetika məsələlərinə dini-əxlaqi kontekstdən yanaşım ictimai problem həddinə çatmışdır və onun həlli yollarını bütün mümkün vasitələrlə, istər nəzəri, istər təcrübi metodlarla təyin etmək lazımdır.

Bugün bioetikanın müasir cəmiyyətimizin müzakirəsinə çıxardığı bir sıra problemlərə - evtanaziya, abort, süni mayalanma, xəstələr üzərində təcrübə və s. məsələlərə İslam hüququnun, fiqhin müxtəlif məktəblərinin mövqeyi birmənalı olmasa da, vahid məntiqi qərar hər zaman eynidir: müsəlmanın öz canına və başqalarının canına, sağlamlığına zərər verməsi yolverilməzdir. Bunu bir sıra müsəlman ölkələrində - Küveytdə, Misirdə, İranda, Pakistanda, həmçinin Kanada və ABŞ-ın müsəlman icmalarında qəbul edilmiş İslam tibbi kodeksləri də təsbit edir. Hal-hazırda səhiyyə və biotibbi texnologiyaların ictimai, hüquqi, iqtisadi aspektləri İslamın etik məsələləri kontekstində araşdırılmaqda davam edir. İslami bioetikanın inkişafında ən mühüm mərhələ isə 1981-ci ildə Küveytdə İslam Tibbi Elmlər Təşkilatının yaradılması və İslam tibbi etikası kodeksinin qəbul ediməsidir. Bu müddət ərzində dünyanın bir çox ölkələrində

keçirilən beynəlxalq konfranslarda daxili orqanların köçürülməsi, intensiv terapiya texnologiyaları və s. tibbi məsələlərlə yanaşı, ailə, qadın, uşaq hüquqları, gənclərin alkoqol və narkotik asılılığından qurtarılması, müsəlman həkimlərinin xüsusi hazırlıq proqramları məsələləri də gündəmə gətirilmişdir.

Biotexnologiyalar və bioetika problemləri insan həyatının, ailə və cəmiyyətin əsaslarına ciddi təsir göstərdiyinə görə müsəlman teoloji məktəbinin mövqeyi tam şəkildə formalaşmalı və bəyan edilməlidir. Eyni zamanda, kütləvi media əhalini mübahisəli məsələlərin şərhi, müxtəlif siyasi, iqtisadi və ideoloji təsir dairələrinin münasibəti, müsəlman alimlərinin rəyi, həmçinin biotexnoloji təzyiqə məruz qalan sadə müsəlmanların təqdiri və ya etirazı barədə informasiyalarla təmin etməlidir. Nəzərdə saxlamaq lazımdır ki, biotibbi problemlər olduqca mürəkkəbdir, çünki onların əsasında həm bu elmin özünün mürəkkəbliyi, həm də bəzi sosial qrupların müəyyən maraqları durur. Ona görə də bioloji elmlərin tətbiqi qaydalarını şərh edərkən texnoloji, iqtisadi, siyasi və mənəvi aspektləri, onların arasında yaranan ziddiyyətləri diqqətdə saxlamaq lazımdır; təkcə nəyin halal, nəyin haram olduğunu elan etməklə məsələnin mahiyyətini məhdudlaşdırmaq olmaz. Burada daha geniş şərh və daha aydın mövqe lazımdır. Bu əsnada qeyd etmək istərdik ki, Azərbaycanda mövcud olan Bioetika komitəsində, habelə səhiyyəyə dair qərarlar hazırlayan qanunverici komissiyaların işində din xadimlərinin, dini konfessiya nümayəndələrinin rəyinin nəzərə alınması  bir çox baxımdan məqsədəuyğun ola bilərdi.

**Dissertasiya tədqiqatının nəzəri-metodoloji əsaslarını** Qurani-Kərim, Sünnə, hədis və təfsir mənbələri, fəlsəfə, etika, dinşünaslıq, İslam tarixi, İslam əxlaqı, bioetika və  tibbi etika sahəsində həm milli, həm də xarici mütəxəssislərin elmi əsərləri və tədqiqatları təşkil edir. Qarşıya qoyulan vəzifələrin həlli ilə bağlı müxtəlif tendensiyaların araşdırılması zamanı problemlərin səbəb-nəticə əlaqələrinin aşkarlanması, mövcud faktların müqayisəli təhlili, nəticələrin analizi və ümumiləşdirilməsi kimi ümumən qəbul edilmiş və təsbit olunmuş elmi-tədqiqat praktikasından və elmi

metodologiyanın dialektika qanunlarından, induktiv və deduktiv, tarixi və məntiqi universal idrak metodlarından istifadə olunmuşdur. Tədqiqatın metodoloji strukturu İslamın əxlaq, fiqh və bioetika sahələrinin öyrənilməsində nəzəri və praktik mahiyyət kəsb edir.

Müəllif bəşərin qlobal problemlərindən biri olan bioetika məsələlərinə dinin etik postulatlarının münasibətini şərh edərkən proseslərə obyektiv qiymət verməyə səy göstəribdir. Tədqiqat işində tarixi hadisə və proseslərin işıqlandırılmasında sosial fəlsəfənin tarixilik prinsiplərindən yararlanmış, xronoloji ardıcıllıq saxlanılmış, müəllif bütün mənbələrə öz mövqeyindən yanaşaraq təhlil və müqayisə metodundan istifadə etmiş, səbəb-nəticə əlaqələrinə diqqət yönəltmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya Azərbaycanda bioetika problemlərinə və biotexnoloji nailiyyətlərin cəmiyyətdə yaratdığı etik sorğulara İslam dininin əxlaq prinsipləri baxımından hərtərəfli şərhini verən ilk elmi tədqiqat əsəridir. Tədqiqat mövzusu fəlsəfi, dini və elmi baxımdan ölkəmizdə ilk dəfə təhlil olunur, problemin dini-əxlaqi kontekstdən müasir sosial-mədəni və ictimai-siyasi aspektlərə qədər olan genezisi işıqlandırılır. Problemin strukturu və açılqlanması ilə aydınlaşdırılan elmi yenilik aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- İslam bioetikasının əxlaq kateqoriyalarının etika elminin müstəsna tədqiqat sahəsi olduğunu və müasir fəlsəfə elmi tərəfindən nəzəri və praktik cəhətdən öyrənilməsinin vacibliyini təsbit edilir;

- Müasir dönəmdə elm və din arasında qarşılıqlı münasibətlər qurmağın vacıbliyi, yaşadığımız texniki inqilablar dövründə dini-mənəvi dəyərlərin cəmiyyətdə öz yerini tutması, insan haqları baxımından etik normalara əməl olunması prinsipləri müzakirəyə çıxarılır;

- 21-ci əsrdə tibbi-bioloji inqilab adı altında cəmiyyətə təlqin edilən mənəvi postulatların meydana çıxması ilə dini sahəyə elmi cəhətdən yanaşmanın aktuallığını, elmi-texniki tərəqqi qarşısında İslamın mövqeyini və əxlaqi məfkurəsini bəyan etməyin vacibliyi-

ni vurğulayır;

- Qloballaşan dünyada elm və din arasında tarazlığın yaradılması, tibbi-bioloji nailiyyətlərin eyforiyası fövqündə dini mentalitetin və əxlaqın qorunub saxlanılması problemlərinə etik-fəlsəfi fikir baxımından münasibət bildirilir;

- İslamın bioetika problemlərinə münasibəti idraki ümumiləşdirmə üslubu ilə tarixi, fəlsəfi və ictimai aspektlərdən işıqlandırır və müqayisəli analizlə təkcə müxtəlif dinlərin deyil, eyni zamanda dindaxili müxtəlif təriqət və məzhəblərin də problemə münasibəti araşdırılır;

- İslam dininin iki təməli sayılan Qurani-Kərim və Sünnədə cəmiyyət və ətraf mühitə olan etik münasibətin təməlləri dəlil və mənbələrlə şərh edilir, dini dəyərlərin genezisi və mahiyyəti açıqlanır;

- Müasir dönəmdə Azərbaycanda mövcud olan Bioetika komitəsində, habelə səhiyyəyə dair qərarlar hazırlayan qanunverici komissiyaların işində din xadimlərinin, dini konfessiya nümayəndələrinin rəyinin nəzərə alınmasının, kütləvi informasiya vasitələri tərəfindən problemin maarifləndirici proqramlar daxilində işıqlandırılımasının vacibliyi məsələləri irəli sürülür.

**Tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti.** Bu tədqiqat işində işıqlandırılan məsələlər cəmiyyətimizin ən aktual və daima cavabı aranan problemləridir. Məlumdur ki, hər bir insan həyatın və ölümün mahiyyətini dini və elmi postulatlarda axtarır. Koqnitivlik baxımından elmi nailiyyətlərə, tibbi-bioloji innovasiyalara dinin prinsipial münasibəti açıqlandığı kimi, müasir elmi ixtiraların müsbət və mənfi tərəfləri də dini mühit və dindar qisim üçün aydınlaşa bilər. Tibbi etika və dini əxlaqa dair suallara cavab axtaranlar həm müxtəlif dinlərin, həm də İslamın müxtəlif məzhəb və təriqətlərinin mövqeyi ilə tanış ola biləcəklər. Bu mənada tədqiqat işinin aktual cəhəti ondadır ki, müxtəlif elmi və dini dünyagörüşlərinin nəzəri konsepsiyasını sistemləşdirə bilmiş və elmi-populyar ədəbiyyatın yeni bir nümunəsini təqdim etmişdir. Bu dissertasiya işinin müddəa və nəticələri təhsil prosesində, elmi tədqiqatlarda, müxtəlif maarifləndirici tədbirlərdə, KİV-də, o cümlədən din xadimlərinin təcrübi

fəaliyyətində istifadə oluna bilər.

**İşin aprobasiyası.** Azərbaycanda 2017-ci ilin "İslam həmrəyliyi ili" elan olunması ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası və Elmi-Dini Şurasının qərarı ilə dissertasiya işinin əsas müddəalarını əhatə edən "İslam və Bioetika" kitabı (Bakı, "İpəkyolu" nəşriyyatı-2017; 23 ç.v.) nəşr edilmişdır. Mövzunun dini ictimaiyyət üçün aktuallığı nəzərə alınaraq, bəzi müddəalar QMİ-nin din xadimləri üçün metodik vəsait kimi hazırladığı "Moizələr və xütbələr kitabına" (Bakı, "Nurlar" nəşriyyatı-2017; 24 ç.v.) daxil edilmişdir. Müəllifin mövzu ilə əlaqəli 20-dən artıq nəşr olunmuş elmi məqalə və konfrans materialları mövcuddur, həmçinin dissertasiyanın mövzusuna dair Azərbaycan İlahiyyat İnstitutunda seminar (fevral 2020) keçirilmiş, QMİ-nin din xadimlərini təkmilləşdirmə kurslarında mühazirələr oxunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun Etika şöbəsində fəlsəfə elmləri doktoru, professor İ.R.Məmmədzadənin elmi məsləhətçiliyi ilə hazırlanmışdır. Dissertasiya işinin bilavasitə elmi və təcrübi baxımdan aprobasiyası elmi məsləhətçi Qafqaz Müsəlmanları İdarəsinin sədri, tarix elmləri doktoru, professor, Şeyxülislam A.H.Paşazadənin rəhbərliyi ilə olmuşdur.

**Dissertasiyanın strukturu** tədqiqatın məqsədləri, vəzifələri və metodologiyası, elmi yeniliyi ilə şərtlənir. Dissertasiya giriş, doqquz paraqrafı əhatə edən üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Dissertasiyanın girişində** mövzunun atuallığı əsaslandırılır, onun elmi cəhətdən işlənmə dərəcəsi işıqlandırılır, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi,  mənbə və müddəaları müəyyənləşdirilir, işim təcrübi əhəmiyyəti açıqlanır.

**Birinci fəsil** “Bioetikaya fəlsəfi-metodoloji yanaşma və dünya dinlərinin bioetika problemlərinə münasibəti” adlanır. Məlumdur ki, bioetkanın müasir dönəmdəki elmi-ictimai-siyasi-mənəvi mahiyyətini dərk etmək üçün istifadə olunan ənənəvi metodoloji vasitə - predmetin yaranma və inkişaf tarixinə ekskurs keçirməkdir. Əsrlər boyu bioetikanın formalaşması mərhələsində müxtəlif elmi amillərin və fəlsəfi kateqoriyaların təsir gücünü nəzərə almamaq olmaz. Belə ki, bəzi mərhələlər xüsusi əhəmiyyət kəsb edir; məsələn, Hippokratın həkim andı və İkinci Dünya müharibəsindən sonra Nürnberq prosesi arasında baş verən təkamül prosesində bioetikanın bir ictimai fikir hadisəsinə çevrilməsinin şahidi oluruq.

Bəzi alimlər etikanı əxlaq haqqında elmi fəlsəfənin humanistik dəyər problematikası səviyyəsinə qaldırmış, onu mənəvi münasibətləri öyrənən xüsusi ictimai şüur növü kimi xarakterizə etmişlər. Əxlaqın tarixi inkişafının bir tərəfdən insanların bir-biri ilə ictimai bağlılığı, digər tərəfdən isə onların fərdiliyi və şəxsiyyəti fonologiyası ilə qırılmaz əlaqədə olduğunu söyləyənlər də olmuşdur. Əksər filosoflar isə əxlaqı cəmiyyətdə insanın ən güclü fərdi və ictimai qüvvələrindən, dəyərli keyfiyyətlərindən biri kimi qəbul etmişlər. Bu üzdən etikada insanın insana, insanın dinə və insanın elmə münasibəti tarix boyu əsas predmet sayılmışdır. Alim və filosoflar öz əsərlərində qeyd etmişlər ki, etik biliklərə sahib olmaq və həyatda onlardan bəhrələnmək bəşər tarixinin bu və ya digər dövründə əxlaqın keyfiyyət durumu - etik biliklərin obyektiv aspekti ilə müəyyənləşir. Prof. İ.R. Məmmədzadə doğru olaraq qeyd edir ki: *“Fəlsəfə və dinin qarşılıqlı münasibətləri üzərində düşünərkən.. biz əxlaqla dinin və elmin ayrılmasının olduqca çətinləşdiyi sahə ilə rastlaşırıq. Fəlsəfənin bir hissəsi etikadır - əxlaq, əxlaqın tədqiq metodlogiyası haqqında elmdir. Dini inam isə hər bir fərdin əxlaqının, dəyərlərinin bir hissəsidir. Belə olan halda, etika üçün müasir insanın daxili aləmini öyrənmək, fərdin praktik davranışı üçün öz tövsiyələrini vermək vacib işə çevrilir. Etik tədqiqatlarda sosiologiya və psixologiyanın nəticələrindən istifadə etmək lazımdır ki, onlar cəmiyyət və fərd tərəfndən etibarla qavranılsın”* [6].

---
[6] Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında / Bakı, - Elm və təhsil,-2020,- s.82.

Antik dövrdən müasirliyə qədər fəlsəfədə və ictimai fikirdə etik baxışların təkamülü və əsas qayəsi vahid elm sistemində etikanın yeri və əlaqələri, böyük mütəfəkkirlərin insanlarda və cəmiyyətdə görmək istədikləri əxlaqi-mənəvi dəyərlər, etik əsaslar üzərində bioetikanın meydana gəlməsini şərtləndirən səbəblər, bu yeni elmi-praktik sintezin mahiyyəti və inkişafı haqqında bilgiləri nəzərdiqqətə çatdırmaq tədqiqatın əsas məqsədlərindəndir. Bioetika konsepsiyasının müasir cəmiyyət üçün əhəmiyyəti, xeyirxahlıq və mərhəmət ideologiyasının hər bir kəs üçün vacibliyi, təcrübi biologiya və biotibb sahəsində aparılan və heyrət doğuran fundamental tədqiqatlarda bioetik prinsip və normaların gözlənilməsinin zəruriliyi məsələləri ilkin olaraq fəlsəfə və etika təlimlərində əxlaqi normativ kimi diqqətə çatdırılmışdır.

Fəlsəfədə əxlaq, etika təlimlərinin ilk yaradıcıları, antik dövrün böyük mütəfəkkirləri – Sokrat, Hippokrat və Aristotel sayılır. Qədim yunanlar arasında böyük təbib Hippokratın adı da çox məşhur idi. Hippokrat tibb tarixində təbibliyin ilk etik kodeksini yaratmışdır. “Hippokratın andı” kimi şöhrət tapan bu tibbi kodeks müasir dövrdə də həkimlər üçün nümunəvi olan çox ciddi tezislər irəli sürmüşdür. Qədim dünyanın həm arxaik, həm də daha yaxın tarixlərində tibbə dair etik fikirlərdə üç əsas məqamla rastlaşırıq: bunlardan birincisi, həkimin xəstəyə münasibətində ədəb qaydaları; ikincisi, xəstəyə yardımın mənəvi borc olması; üçüncüsü, ictimai səhiyyənin sabitliyi naminə dövlət tərəfindən vətəndaşların sağlamlığına diqqət yetirilməsidir. Bizim eradan 1750 il əvvəl tərtib edilmiş Hammurapi Qanunlarında Şumer dövlətinin həkim və ya təbiblər üçün nəzərdə tutduğu iş müddəti və əmək haqqı haqqında reqlamentlər vardı. Qərbin tibbi etikaya dair fikirlərinin əsasında isə, təbii ki, Hippokratın Həkim andı ( b.e.ə. 460-370 illər) durur. Həkim andının mahiyyəti ondan ibarətdir ki, öz dövrünün mədəniyyətinin göstəricisi olan bu təlimat hüquqi xarakter daşımır, lakin bəzi hallarda özünü qanundan və ya hüquqdan üstün bilən həkim şəxsləri bəlli bir kodeksə riayət etməyə məcbur edir. Antik dövrlərdə qanunlar sadə vətəndaşlara tətbiq edilirdi, həkimlər isə dövlət

və din xadimləri kimi əlahiddə kateqoriya sahibi idilər və onlara münasibətdə "toxunulmazlıq statusu" mövcud idi. Məhz bu mənada Hippokratın Həkim andı inqilabi dəyişiklik kimi dəyərləndirilməlidir, çünki o, həkimlərin xəstələrə münasibətini hüquqi olmasa da, professional və etik qanunlar çərçivəsinə yerləşdirə bilmişdir.

Həkim andı hər bir həkimin, tibb işçisinin davranış qaydalarını "Zərər vurma, mərhəmət göstər!" prinsipləri əsasında tənzimləməyə bir cəhddir. Həkimin ethos-u, onun xəstəyə şəfqətli münasibətidir və bu münasibətlərdə mənəviyyat bütün qanunlar və şübhələrdən üstündür. Lakin sonrakı dövrlərdə Sokrat, Platon və Aristotelin etik-fəlsəfi fikirlərinin evolyusiyası nəticəsində Hippokrat konsepsiyandakı subyektiv əxlaq kriterilərinin obyektiv həqiqətdən uzaq olduğu barədə müxtəlif mülahizələr yürüdülmüşdür. Buna baxmayaraq, Hippokratın andı bütün klassik mədəniyyət dövrü, o cümlədən Orta əsrlər üçün dəyişməz və kanonik olmaqda davam etmişdir. Hippokrat andının başqa mədəniyyətlərə də təsir göstərdiyini analoji formulaların yaranması ilə təsdiq etmək olar: VI əsrdə Suriyada Asəf bin Bərayahu andı, Misirdə Musa Məymunidin (1135-1204) Gündəlik həkim duaları, İranda Muhəmməd Hazinin (1770) Həkim vəzifələri kodeksləri buna misaldır.

Aristotel fəlsəfədə elmi etika qolunun yaradıcılarından olmuşdur. Böyük filosof və mütəfəkkir kimi məşhurlaşan Aristotel etika haqqında düşüncələrini nəsilli təbiblər ailəsindən çıxmış və Makedoniya şahı yanında saray həkimi olmuş atası Nikomaxa həsr etdiyi "Nikomaxın etikası" adlı əsərində, habelə "Böyük etika", "Evdemin etikası" traktatlarında əks etdirib. Aristotel etikanı mücərrəd bir formada təsvir etmirdi, onu cəmiyyət və insanlar, xüsusilə də ağıl və kamala çatan insanlar üçün gərəkli olan həyatı təlim, həkimlik peşəsi, xeyirxahlıqlar kodeksi ilə sıx bağlı olan, əməli hərəkət və fəaliyyət üçün zəruri hesab edilən fundamental, məfkurəvi insan davranışını idarə edən qayda və qanunlar məcəlləsi kimi qələmə verirdi [7]. Roma mədəniyyəti dövründə də insanın

---

[7] Богомолов А.С. Античная философия / Москва,-МГУ,-1985,-с.28.

həyat tərzi mənəviyyat problemi hesab olunurdu. Romalılar mənəvi həyatı şəxsi yaradıcılıq kimi başa düşür və onun hüquqi-inzibati tərəflərini də araşdırıb qanuna salırdılar. Siseronun təbirincə desək, hətta *"fəlsəfənin mahiyyətində nəyin yaxşı, nəyin pis olmasını dərk etmək"* durursa, bunu dövlətin və cəmiyyətin rifahı üçün istifadə etmək lazımdır [8].

Şərq mədəniyyətində mənəvi-əxlaqi aspektlər əsrlər boyu müdriklərin, mütəfəkkir-filosof və alimlərin, böyük poeziya və nəsr ustadlarının düşüncə və amallarında öz məxsusi yanaşma və təhlil formalarını tapmışdır. Şərqin etika təlimlərində xeyr və şər əxlaqı şüurun bir növ qiymətləndirici-normativ kateqoriyasına çevrilir. Etika və fəlsəfə, eləcə də bədii yaradıcılıq tarixində xeyr və şərin izahatları birmənalı olmayıb, müxtəlif baxışlar (materialist, idealist, dini, naturalist, qedonik, evdomonik, utilitar və s.) mövqelərdən verilib, əsrdən əsrə, xalqdan xalqa, cəmiyyətdən cəmiyyətə dəyişilib, bir sıra hallarda isə bu intrepretasiyalar ziddiyətlərlə dolu olub.

Şərq etik fikrində Buddanın (Siddxartxa Qaytama) xüsusi yeri var. Buddizm təliminə görə, insanın ruhi, mənəvi həyat qanunu, onun mahiyyəti "dörd əlvan həqiqətdədir" - dünyada əzab var və hər şey əzabdan keçir, əzabı doğuran səbəblər və əzabdan qurtuluş yolları var. Bu həqiqətləri özünə həyat proqramı kimi qəbul edənlər mənəvi ucalığa çatırlar. İnsanın davranış xətti, onun əməlləri, mənəvi xəzinəsi hər kəsə aid olan və hər kəsin başa düşdüyü xeyirxahlıqlardan ibarət olmalıdır. Əsas xeyirxahlıqlar isə Buddaya görə bunlardır: həyatın mənasını dərk etmək, yalan mühakimələrdən uzaqlaşmaq, başqasına xətər yetirməmək, əxlaq sərhədlərini gözləmək, öz iradəsini başqasına diktə etməmək, ehtirasları boğmağı bacarmaq [9].

Sonrakı dövrlərdə elmlərin təsnifatlarını yaradan filosof və alimlər etikanı o vaxtlarda inkişaf edən və dəbdə olan əsas fənnlər sırasında yerləşdirirdilər. Məsələn, filosof Gassendi məntiq və fizikadan sonra, elmin klassifikasiyasına etikanı salmışdı. Kantın

---

[8] Цицерон. Философские трактаты / Москва, -Наука,- 1985, -Д II, 2, 10.
[9] Мусский И.А. Сто великих мыслителей / Москва, -Весе, - 2000, -с.209.

fəlsəfəsində etika xüsusi yer almış və onu çox yüksəyə qaldırmışdır. Hegel elmləri məntiq, təbiətin fəlsəfəsi və ruhun fəlsəfəsi kimi bölümlərə ayırırdı, bu bölgüdə etika ruhun fəlsəfəsinə daxil idi və mənəviyyat konsepsiyasının daşıyıcısıydı. Avropada Böyük İntibah dövründə təbiətə, insana və onun tərbiyəsinə baxışlar daha konkret və dəqiq məcralara yönəlir, böyük maarifçi-filosoflar və humanistlər elitası yaranır, Con Lokk, Benedikt Spinoza, Fransua Volter, Jan Jak Russo, Deni Didro, Ditrix Qolbax, Sen-Simon və başqa bu kimi intibaha gedən Avropa mədəniyyətinin elitar nümayəndələri təbiətlə insan, insanla insan, ailə və cəmiyyət, savadla davranış arasında olan incə və təsirli əlaqələr, onların əxlaqi, etik və estetik tərəfləri haqqında rasional, praqmatik və liberal fikirlərlə çıxış edirlər. Bu dövrün böyük simalarından biri olan filosof İmananuil Kantın etika barəsində fikirləri diqqəti daha çox çəkir. Kant etikasının mərkəzi prinsipi borc və vəzifə anlayışına əsaslanan kateqorik imperativdir. İnsan fərd kimi təbiət qanunlarından aşağıda durur, xarici aləmin təsiri altındadır, o azad deyil, amma öz dərrakəsinə, fərdiliyinə görə müstəqildir və özünün praktik ağıl və düşüncəsinə əsaslanır.

Bioetika Qərbin biologiya və tibb sahəsində çalışan alimlərin təşəbbüsü ilə yarandı və yeni məzmun daşıyan etik təlim kimi meydana gəldi. Buna qədər Avropada və Amerikada evolyusion etika, naturalistlik etika, "həyata pərəstiş" etikası kimi yeni baxışlar sistemi mövcud idi. Vaxtilə filosof və təbiətşünas Benedikt Spinoza "Etika" əsərində göstərirdi ki, *"mən insanın şövq və hərəkətləri barədə elə danışmalıyam ki, sanki mən həndəsi cismlər, səthlər və xəttlər haqqında danışıram"* [10]. Naruralistlik etik nəzəriyyələr isə israr edirdi ki, əxlaqi prinsiplərin kökündə təbii əsaslar (kosmik, bioloji, psixoloji, tibbi əsaslar) durmalıdır, təbiət elmlərinin və biososial analizlərin nailiyyətlərinə, təbiətşünaslığın və sosiologiyanın bəzi fundamental məsələlərin ətrafında gedən müzakirələrə söykənməlidir. "Həyata pərəstiş" etikası mütəfəkkir-həkim, Beynəlxalq Nobel Sülh mükafatı laureatı, protestant teoloq Albert

[10] Спиноза Б.Этика / М-Л; Госсоцэкономиздат, -1932, с.156.

Şveyserin adı ilə bağlı idi. Şveyserə görə, həyat qarşısında pərəstiş, ehtiram hamının əxlaqi prinsipi olmalıdır. Bu prinsip bəşəriyyətin etik dirçəlişinin, universal etik normalarının hazırlanmasının əsasına çevrilməlidir. Baxmayaraq ki, A. Şveyser etika və estetikanı "fəlsəfənin ögey qızları" adlandırır, onları elmi sahə hesab etmir, elmi etikanın varlığını şübhə altına alır, yenə də bu nəticəyə gəlir ki, etika – düşüncə elmidir, onun predmeti insanın sirli Mən-ində (eqosunda) cərəyan edən subyektiv faktların qarşılıqlı əlaqələrinin öyrənilməsidir [11].

Bioetika və onun təcrübi problemləri bu gün bütün bəşəriyyəti əhatə və narahat edir. İnsanların həyat qaydaları hüquqi və ictimai baxımdan tənzimləndiyi kimi, dini və mənəvi-əxlaqi baxımdan da dəstəklənməlidir. Dünya dinlərinin bioetikaya münasibəti heç də həmişə eyni olmasa da, dini etikanın əsas prinsipi məhz əxlaqi kontekstin təsbitlənməsi üzərindədir. Öz təməl mənbələrinə və ilahi dəyərlərinə söykənən bütün mövcud dinlər kimi İslam dini də bugünkü müasir dünyada əxlaq prinsiplərinin vacibliyini, milli-mənəvi dəyərlər sistemini qorumağa çalışır, elmi ictimaiyyəti, siyasi və ictimai strukturları mənəviyyat məsələlərini diqqətdə saxlamağa çağırır. Belə bir retrospektiv baxışda yəhudiliyin və xristian ilahiyyatının, həmçinin qeyri-səmavi dinlərin bəzi qollarının təbabətin etikasına dair mülahizələrinin araşdırılmasında fayda vardır.

**"İudaizmdə tibbi və dini etika dilemması"** adlanan **I paraqrafda** hal-hazırda üç əsas qolları - reformist, konservator və ortodoks cərəyanları ilə inkişaf edən iudaizmin, Bibliya (Tanaha), Talmud və ravvinlərin mühakimələrinə əsaslanan yəhudi qanunları toplusu Halakahın xəstə-həkim münasibətlərində aktiv və passiv yanaşmalar, tibbi və dini etika qanunlarının uzlaşması problemlərinə münasibəti araşdırılır.

Yəhudi dininin əsas kitabları olan Tövrat və Talmudda tibbi göstərişlərin, sağlamlığa dair fikirlərin yer alması təkzibolunmazdır. Talmudda olan qanunların cəmi mənasını verən Halakah bütün

---

[11] Швейцер А. Благоговение перед жизнью / Москва, -Прогресс,-1992,-с.101.

müşkül tibbi etik vəziyyətlərin müzakirələrini keçmiş rəvayətlərlə əsaslandırır. Tibbi etika bu günə qədər yəhudi dünyagörüşündə Tövrat və Talmudun təməl prinsipləri ilə əlaqədardır. Yəhudilərin dünyəvi biliklərinin önündə tibbi sahə gedir, yəni bütün mənbələr yəhudi həkimlərinin daha tanınmış və avtoritar olduğunu sübut edir. Həkimlik sənəti yəhudilikdə həmişə çox şərəfli sayılmış, tarix boyu yəhudi həkimləri saray təbibləri kimi məşhurlaşmışlar. Bu da doğrudur ki, Avropada IV əsrdən başlayaraq yəhudi həkimlərinə xristianları müalicə etmək qadağan edilmiş, yəhudi həkimlər daima mövcud olan və olmayan günahlarla ittiham olunmuşlar. Buna baxmayaraq, yəhudi həkimlərinin tibbə göstərdikləri xidmətlər bəşər sivilizasiyasının inkişafı üçün əvəzedilməz sayılmalıdır.

İudaizm, əslində müasir bioetikanı elm sahəsi və ya ictimai problem kimi qəbul etmir, hesab edir ki, bütün müşkül tibbi etik vəziyyətlərin həllini keçmiş rəvayətlərdə tapmaq olar. Məhz bu səbəbdən, tibbi etika bu günə qədər yəhudi dünyagörüşündə Tövrat və Talmudun təməl prinsipləri ilə əlaqəli qəbul edilir. Halakaha görə, həkim qəbuluna gələn xəstə artıq *müalicə hüququna* malikdir və kimsənin haqqı yoxdur ki, başqalarını xilas etmək naminə olsa belə, xəstənin müalicəsindən imtina etsin və yaxud bir xəstəni digərlərinə fəda etsin.

Halakaha görə, bəzi situasiyalarda *insanlar üzərində təcrübələr* aparılmasına icazə verilir. Lakin bu prinsipial qərar avtomatik olaraq yerinə yetirilə bilməz, bunun üçün həkimlərin və Halakah mütəxəssislərinin ortaq razılığı olmalı və aşağıdakı qaydalara əməl edilməlidir:

1. Təcrübələr elmi və təcrübi baxımdan əsaslandırılmalı, həmin sahənin ən yaxşı mütəxəssisləri tərəfindən aparılmalıdır;
2. Təcrübələrdə iştirak könüllü və dərk edilmiş şəkildə olmalıdır, üzərində təcrübələr aparılan şəxs istədiyi zaman imtina etmək haqqına malik olmalıdır;
3. Təcrübə ölüm təhlükəsi daşımamalıdır.

Bu tələblər ruhi xəstələr, əqli cəhətdən zəiflər, uşaqlar, yeniyetmələr, huşunu itirmiş şəxslər üzərində yaxın qohumların icazəsi

olmadan (hətta həyatını xilas etmək məqsədi ilə olsa belə), təcrübə aparılmasını qəti şəkildə istisna edir. İudaizm qanunları *heyvanlar üzərində təcrübələri,* o cümlədən viviseksiyanı – canlıkəsimi qadağan etmir. Heyvanlar insanlara xidmət edir, bu normal haldır, lakin heyvanlara əziyyət, işgəncə vermək iudaizm qanunlarına görə yolverilməzdir. Buna görə də təcrübələr zamanı bu amillər nəzərə alınmalı və yalnız insan həyatı üçün önəm kəsb edən və Halakaha uyğun gələn tədqiqatlar aparılmalıdır.

*Transplantasiya,* qan və daxili orqanların köçürülməsi məsələsinə də iudaizmin münasibəti birmənalı deyil. İudaizmə görə, donor olan şəxsin transplantasıya zamanı ölüm təhlükəsi yaranarsa, bu onun həyatına qəsd kimi dəyərləndirilməlidir.

Bütün dinlərdə olduğu kimi, iudaizmdə də ən mürəkkəb məsələ *abort* və ya uşaq saldırma ilə əlaqədardır. Halakah ədəbiyyatında saysız-hesabsız ravvinistik mülahizələrə rast gəlmək olar, lakin ümumi yəhudi ənənəsi hesab edir ki, abort məsələsinə fərdi, individual yanaşım lazımdır. Sanballı tibbi çıxarışla yanaşı, məsuliyyətli mənəvi qərar vermək də vacibdir, həm də sonuncu mütləq təcrübəli ravvinin məsləhətindən sonra verilməlidir. Ümumi fikir isə bundan ibarətdir ki, iudaizm abortu qətl hadisəsi hesab etmir. Qismən bu fikir təsadüfi, qəsdən edilməyən uşaq salma halları üzərindən yaranmışdır. Müasir dönəmdə abort əleyhdarlarının kəskin çıxışlarına baxmayaraq, yəhudi ravvinistik ədəbiyyatda abortu ölüm halı kimi dəyərləndirmə aspektinə parktik olaraq rast gəlinmir. *Doğumun planlaşdırılması, kontrasepsiya və süni mayalanmaya* dair yəhudi ravvinlərinin fikirləri də xüsusi maraq kəsb edir. Sterilizasiya – “evlənin və çoxalın” ilahi əmrinə əkslik təşkil etdiyinə və özünə xəsarət yetirməyə bərabər olduğuna görə qəti şəkildə qadağan edilir. Yalnız mütləq tibbi vacibat olduğu təqdirdə buna icazə verilə bilər. Yenə də ravvinlə məsləhətləşmək önəmlə tövsiyə olunur.

Müasir dövrün aktual ailə və cəmiyyət problemlərindən sayılan *surroqat analıq və süni mayalanma* məsələlərinə yəhudi dini baxışları maraq kəsb etməyə bilməz. Müasir tibb elminin inkişafı, təəssüf ki, qəliz olan etik-mənəvi problemlərə tam çözüm gətirə

bilmir. Həmçinin, elmin sürətlə inkişafı, hal və vəziyyətin tez-tez dəyişməsi bütün din xadimləri kimi ravvinləri də təsir altına salır. Təbii ki, iudaizm üçün problem kəsb edən bioetika məsələlərindən biri də evtanaziyadır. Yəhudilik *evtanaziyanı* qətiyyən qəbul etmir. Həkim sonuna qədər xəstə uğrunda mübarizə aparmalıdır. Həkimin ölüm qərarı verməsi qədim yəhudi təfəkkürünə görə, ən böyük günah və agır cinayətdir, çünki bu halda o, özünü Rəbbinə bərabər bilmişdir. Həkim "Neeman ve Rahman" ( imanlı və etibarlı ) olmalıdır, xəstənin can dostu kimi rəftar etməlidir. Halakah da bunun üzərində dayanır: aktiv evtanaziya və ya xəstənin istəyi ilə həkimin qərarı üzrə ölüm qadağandır. İsrailin yeni qanunları həyat müqəddəsliyi ilə xəstə avtonomiyası ifadələrini balanslaşdırmaq istəyir.

Dissertasiyanın birinci fəslinin ***"Dini etika və bioetika xristian personalizmi baxımından"*** adlanan **II paraqrafında** qeyd olunur ki, xristianlıqda insan şəxsiyyətinin dəyəri – xristian personalizmi klassik dualizmin üzərindən təsdiqini tapır.

Bioetikanın aktual problemlərinə ən həssas yanaşan və qısqanclıqla məzhəbi postulatlarını qorumağa çalışan dini cərəyan – katolisizmdir. Müasir dönəmdə katolik kilsəsi doğumun idarəedilməsi, sterilizasiya, abortun qanuniləşdirilməsi, gen mühəndisliyi, süni mayalanma, orqan və hüceyrə nəqli, evtanaziya, inkişaf etməkdə olan ölkələrdə sanitar-epidemioloji xidmətlərin yaradılması məsələləri ətrafında aktiv şəkildə müzakirələr aparır və qərarlar qəbul edir. Əgər bütün postulatları ümumiləşdirsək, o zaman katolik kilsəsinin bioetikaya münasibətini belə ifadə edə bilərik: xristian əxlaqı etikaya utilarist yanaşmanın, azadlığın absolyutluğunun və naturalist sosiobiologiyanın əleyhinədir; İnsanın fiziki həyatı müqəddəs bir dəyərdir, buna görə də evtanaziya, abort, intihar və digər həyata qəsdetmə halları qəbuledilməzdir; Tibbi etikada əsas prinsip terapiya və ya tamlığın pozulmazlığı olmalıdır; Tibbi və cərrahi, fiziki və genetik müdaxilələr yalnız insanın xilası və sağlamlığın bərpası üçün ola bilər; Həm həkim, həm də xəstə həyat naminə məsuliyyət daşıyırlar; Və nəhayət, tibbi yardım vətəndaşın hüququ və cəmiyyətin borcudur, sağlamlıq üçün cəmiyyət məsu-

liyyət daşıyır və hər bir dövlət bu məsələyə lazımi diqqət və maddi köməklik göstərməlidir.

Pravoslav əqidəsi katolisizmin praktik və uyuşqan məsləhət vericiliyindən, eləcə də protestansizmin avtonom (muxtariyyətçi) etika tərəfdarlığından fərqlənir. Buna görə də ortodoksal pravoslavlıq qeyri-liberallığına görə başqa xristian cərəyanları və dünyəvilər tərəfindən tənqidə məruz qalır. Pravoslavlığa görə əxlaq – ilk növbədə, qəlbin təmizliyidir *( блюдение сердца)*. Qəlb təmizliyi uzun və məşəqqətli prosesdir, burada insan həya, vicdan, şəfqət və xilaskarlıq kimi məziyyətlərə malik olmalıdır. Buna görə pravoslavlıq biotibbi texnologiyaların yeni reallığını və müasir əxlaqi münasibətləri qəbul etmir, ona uyğunlaşmır, yalnız əsas ontoloji təmayülün təyin edilməsi lehinə çıxışlar edir. Digər xristian cərəyanlarına qarşı daima tənqidi mövqedə olan pravoslavlıq özünün mənəvi antropologiya fərqliliyini iki əsas mövqeyində görür. Birincisi, antropologiyanın təməli məsələsidir. Katolisizm üçün bu təməl gerçəklikdirsə, pravoslavlar bunun özünütanıma – Tanrını, azadlığı, əxlaqı, məhəbbəti, gözəlliyi tanıma olduğunu iddia edirlər. İkinci cəhət, insanın İlahi Varlıq daşıyıcısı olmasındadır. Bu təfəkkürdə Allaha bənzərlik *(богообразие)* mövcud olduğu üçün, abort və evtanaziya kimi hallar Tanrıya qəsd qismində olan cinayətlərdir.

Digər bir xristian cərəyanı olan Protestant etikasının təməli – məsuliyyət anlayışıdır. Öz məsuliyyətini dərk edən şəxs Tanrının sözünü və ilahi vəzifəsini anlayan, eləcə də Müqəddəs Kitablara etiqad edən şəxsdir. Protestant anlayışına görə, məsuliyyət yaxşı və pis əməllərlə heç bir əlaqəsi olmayan bir vəzifədir, o sadəcə tələb olunan məqama yetişmək üçün axtarış, səy və hərəkətin bir formasıdır. Eyni zamanda, belə bir məsuliyyət şüurlu seçim və məntiqi təfsirlə əldə edilir. Kor-koranə hər tapşırığı yerinə yetirmək yox, etik həqiqəti səbr və ardıcıllıqla əxz etmək lazımdır. Protestantlıqda kilsə aparıcı və həlledici rol oynamır, onun absolyut hakimiyyəti və doqmatik qərarları olmur.

Protestant kilsəsi etik teologiyaya ciddi yanaşsa da, vaciblik əhəmiyyət kəsb etmir və müxtəlif rəylərin mümkünlüyünü qəbul

edərək özünəxas qərarlar qəbul edir. Bu günə qədər bioetika problemlərinə dair protestant mövqelərini əks etdirən 30-dan çox rəsmi qərar dərc edilmişdir. Ümumdünya Kilsələr Şurasının 300-dən artıq dini icmasını birləşdirən "Kilsə və Cəmiyyət" departamenti tərəfindən 1989-cu ildə bu mövzuya dair geniş sənəd təqdim olunmuşdur.

**Üçüncü paraqraf *"Qeyri-səmavi dinlərin fəlsəfi görüşlərində müasir bioetika problemlərinə münasibət"*** problemlərinə həsr olunmuşdur. Biz qeyri-səmavi və ya başqa adı ilə qeyri-hənəfi dinlər kateqoriyasına daxil olan bütün dünya dinlərinin təsnifatını aparmaq və ya onların müasir bioetika problemlərinə münasibətini təfərrüatlı şəkildə araşdırmaq niyyətindən uzağıq. Baxmayaraq ki, Uzaq Şərq fəlsəfəsində etik təlimlərə və təbabətə dair çoxsaylı ədəbiyyat mövcuddur, lakin müasir biotexnologiyalara və tibbi müdaxilələrə münasibətə aid konkret mənbələr azlıq təşkil edir. Bu baxımdan əlimizdə olan informativ materiallar çərçivəsində induizmin, konfusianlığın, taoizmin və buddizm fəlsəfi görüşlərinin təməl əxlaqi və tibbi etikasında bioetika problemlərinin əksini ekskurs şəklində izləyə bilərik.

Hindistanda intensiv terapiya yalnız böyük şəhərlərdə mövcuddur, buna görə də tibbin hüquqi və etik tərəfləri barədə mübahisələr geniş təşəkkül tapmamışdır. Nəzərdə saxlamaq lazımdır ki, induizm mərkəzləşdirilmiş din olmadığından, yerlərə bağlı olaraq müxtəlif təfsir, rəy və fəaliyyətlər ola bilər. İnduistlər və siqhlər bir-birlərindən çox fərqlənsələr də, həyata baxışlarında oxşar bir cəhət var: hər ikisi Karmaya inanır. Karmaya görə, insanın bütün niyyət və əməllərinin nəticələri olur – yaxşı karması olanlar yaxşı yaşayır və ölür, pis karma isə bunun əksində təzahür edir. İnduizm ölümü inkar edir, onlara görə ölüm başqa bir substanta keçiddir, lakin qəfil ölüm böyük bədbəxtliyin göstəricisidir. Həmçinin, insanın necə ölməsinin də bəlli bir mənası vardır. Yaxşı ölüm – insanın yaşlı vaxtında, bütün vəzifələrini yerinə yetirərək və yaxınları ilə vidalaşaraq həyatdan ayrılması deməkdir. Pis ölüm isə - vaxtsız, qəfil, təcavüz nəticəsində, evdən və Qanq çayı sahilindən uzaqda, qan, möhtəviyyat və ifrazat içərisində, hətta nalayiq sözlər söyləyərək

ölən insanın acı sonudur. Bu mənada, intensiv terapiya şöbələrində insanın ölməsi – pis ölümlər kateqoriyasına aiddir.

Adətən induistlər xəstənin reanimasiyasına icazə vermirlər; ölüm sakit olmalıdır, süni şəkildə davam etdirilən həyatın heç bir mənası yoxdur. Evtanaziya qəbul edilmir, lakin bəzi mənbələrdə qəribədir ki, "əgər imkan mövcuddursa, orqanların köçürülməsinə müsbət yanaşılır" ifadəsinə də rast gəlinir [12]. Hələ 1860-cı ilin ingilis cinayət məcəlləsinə görə, Hindistanda evtanaziya qeyri-qanunidir, lakin induist cəmiyyətlərində suisid ənənəsi hələ də mövcuddur.

Ənənəvi Çin mədəniyyətində formal bioetikanın elementlərini tapmaq daha çətindir. Qədim Çində etika təlimləri əsasən Li Er və Konfusi fəlsəfəsindən irəli gəlmişdir. Li Er hesab etmişdir ki, insanları, həmçinin özünü tanımaq və öz qüsurlarını aradan götürməyi bacarmaq lazımdır. Məşhur filosofa görə, xoşbəxtlik və bədbəxtlik müəyyən şəraitlərdə baş verir, insan öz davranışında müəyyən ölçü və meyar gözləməlidir və yalnız bu halda xoşbəxtliyin bədbəxtliyə keçməsinin qarşısı alına bilər. Konfusianlığa görə, ölüm o halda yaxşıdır ki, insan özünün dünya həyatındakı bütün mənəvi borclarını ödəmişdir; əgər ölümlə, terminal xəstəliklə mübarizə aparır,intensiv terapiya üçün müraciət edirsə, demək həmin şəxs hələ mənəvi borclarını tam ödəməmişdir. Etik dəyərlər sisteminin yaradıcılarından olan Konfusiyə görə isə, insan öz həyatında düzgün prinsiplərə əməl etməsə, ondan müsbət heç nə gözləmək olmaz. Böyük alim göstərmişdir ki, insanpərvərlik, nəciblik və humanistlik mənəvi dəyərlərdir, bu dəyərlər ilk növbədə atalar və oğullar, qardaşlar və bacılar, yoldaşlar və dostlar arasında bərqərar olmalıdır. Elə buna görə də Konfusi qeyd etmişdir ki, özünə arzu etmədiyini başqasına da arzu etmə.

Qeyri-səmavi dinlər içərisində *buddizmin* bioetika problemlərinə münasibəti daha geniş aspektdə işıqlandırıldığından, bu dinin postulatları üzərində dayanmalı olacağıq. Şərq etik fikrində

---

[12] Bax: Firth S. 2005. End-of –life: a Hindu view. Lancet 366:682-686.

Buddanın (Siddxartxa Qaytama) xüsusi yeri olmuşdur. Buddizmdə qadağa və nəsihət yoxdur, insan özü özünü dəyişdirməli və mükəmmələşdirməlidir.  Buddist etikanın təməlində təmənnasızlıq (altruizm) və mərhəmət durur. Buddistlərin insan həyatına verdikləri dəyər əsasında onların bioetikaya və biotexnologiyalara  olan münasibətlərini müəyyən etmək  olar. Bu təlimə görə, insan həyatı bütün digər prioritetlərdən daha önəmlidir. İnsanın dünyaya çətinliklə, sancılarla gəlişi ona sansaranın məngənəsindən xilas olmağa imkan verir. Sansara –və ya samsara (ing. *round of rebirth – keçid, yenidəndoğum ardıcıllığı* ) hərfi mənada "sonsuz, əbədi dərbədərlik" mənasındadır. Bu anlayışla canlı varlığın gah yüksəklərə qalxdığı, gah da uçuruma düşdüyü ruhi dünya başa düşülür. Bu, sonsuz şəkildə davam edən doğulma, qocalma, əzab və ölüm proseslərinin simvolik göstərilməsidir. Sansara  dxarmik  dinlərin əsas anlayışlarından  biridir.

Buddizmə görə, insan təkcə bioloji varlıq və ya iki nəfər tərəfindən yaradılan canlı deyil, o, həm də psixofiziki tamlığa malikdir və əməllərinin varisliyini daşıyır. Varislik və mühit insan həyatına çox ciddi təsir göstərir, hətta həyatın buna əsasən determinasiya olmasına baxmayaraq, insan öz yolunu seçmək və dəyişdirmək imkanına malikdir. Bu prinsiplər üzərində buddist tibbi etikanın əsas postulatları qurulur.  *Evtanaziya* – buddistlər üçün mürəkkəb və incə mövzudur, passiv və aktiv evtanaziya seçimindən asılı olaraq, ona münasibət də fərqlidir. Ölümü tezləşdirən aktiv evtanaziya, həmçinin təçavüzün bir forması sayılan intensiv terapiya buddizmə görə yolverilməzdir.  Ölüm mahiyyət dəyişikliyidir, sakit və dinc olmalıdır. Özünün və ya başqasının həyatına qəsd etmək çox mənfur hərəkətdir.  *Rüşeym* müqəddəsdir və insanın varlıq potensialının daşıyıcısıdır. Buna görə də *abort* ölüm cinayətinə bərabər tutulur. *Kontrasepsiya* vasitələrindən prezervativlərin istifadəsinə icazə verilir.  *Sterilizasiya* məsləhət görülmür. İn-Vitro üsulu *süni mayalanmaya* gəldikdə isə, buddizm hesab edir ki, doğum prosesi müxtəlif vasitələrlə baş tuta bilər. Embrion – həyat rüşeymidir, buna görə də onun bir insan qədər mühafizəyə ehtiyacı vardır. Həm

təbii, həm də süni vasitələrlə dünyaya gələn uşaqlar bütün hallarda bərabər hüquqlara malik olmalıdırlar. *Orqanların və toxumaların transplantasiyası* məsələsinə etik baxımdan yanaşılmalıdır. Bu, bir şəfqət aktı və yaxınlarına yardım məqsədilə edilən töhfədir. Bu aspektdən, Ümumdünya Səhiyyə Təşkilatının həkimlərə məsləhəti odur ki, buddizmin yayıldığı ərazilərdə pasientlərin bu və ya digər tibbi metodlara münasibətini öncədən öyrənsinlər, çünki buddistlər heç də hər yerdə vahid olmayan düşüncə və rəy sahibidirlər.

Tədqiqat işinin **II Fəsli *"İslam və Bioetika: əxlaqi-teoloji substanlar İslamın təməl mənbələrində"*** adlanır və üç paraqrafdan ibarətdir.

İslam mədəniyyəti və İslam dini etikanı çox yüksəkliklərə qaldırır, insanların yaşam tərzinin bir sıra vacib prinsip və qaydalarını irəli sürür və təbliğ edir. Tibbi aspektdə İslam dini insanın öz sağlamlığı qayğısına qalmasını ibadətin bir növü kimi qəbul edir. Müsəlman aləmində təbabətin "tibbi-nəbəvi" (Peyğəmbər tibbi) adlanan xüsusi bir bölməsi mövcuddur ki, orada Peyğəmbərimizin sünnəsində tibbin yeri, onun tibbi görüşləri geniş surətdə işıqlandırılır. Həzrət Muhəmməd (s) sağlamlıq sahəsi ilə yaxından maraqlanmış, onun bu mövzudakı hədisləri insanlar üçün yol göstəricisi olmuşdur. Eyni zamanda, Allahın qüdrət və əzəmətini, əbədi və əzəli elmini insanlara çatdıran Qurani-Kərimdə bir sıra tibbə dair məlumatların olması da təbiidir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Quranda nücum - astronomiyadan sonra ən çox tibbi biliklərə yer verilmiş, insanın yaranması, təşəkkülü, anatomiya, fiziologiya, patologiya, bədən və ruh xəstəlikləri barədə qiymətli fikirlər ehtiva edilmişdir. Bir sıra alımların rəyinə görə, Qurani-Kərimin sağlamlıq barəsində əsas prinsipi müalicə deyil, insanı mühafizə etmək, onun sağlamlığını qorumaq – hifzü-sihhədir. Hifzü-sihhəyə bir sıra gigiyenik təlimatlar, o cümlədən normal qidalanma və zərərli ərzaqlardan qorunma məsləhətləri də daxildir. İnsanın sağlamlığına qarşı bu qədər həssas və ciddi olan bir dini sistem kimi İslam tibbi məsələlərin həm əxlaqi, həm də hüquqi baxımdan düzgün uzlaşdırılmasını daima diqqətdə saxlamışdır.

Təbii ki, təkcə müsəlman təbabətinin nailyyətləri əsasında İslam dünyasında bioetik fikrin inkişafına dair mülahizələr söyləmək yetərli olmaz. Burada mütləq şəkildə müsəlman cəmiyyətlərində əxlaqın, hüququn və şəriətin vəhdətindən yaranan kompleks vəziyyəti araşdırmaq lazımdır. Ayrıca nəzərə almaq lazımdır ki, İslamın yayıldığı ərazilərdə iqlim və etnik müxtəlifliyi, adət və ənənələr rəngarəngliyi, məzhəb və təriqət fərqliliyi mövzumuzun hüdudlarını çox genişləndirə bilər. Buna görə də, bu tədqiqatın məqsəd və nəticələrini nəzərə alaraq, qarşımıza qoyduğumuz vəzifələrin həlli ilə bağlı müxtəlif tendensiyaların araşdırılması zamanı mövcud faktların müqayisəli təhlili, nəticələrin analizi və ümumiləşdirilməsi kimi ümumən qəbul edilmiş və təsbit olunmuş elmi metodologiyanın dialektika qanunlarından, induktiv və deduktiv məntiqi idrak metodlarından istifadə etməyə çalışacağıq. Zənnimizcə, bu konseptual yanaşım belə bir geniş mövzunun şərhi üçün ən münasib vasitədir.

Bu fəslin **birinci paraqrafında** ***"Qurani-Kərimdə insan və təbiət problemlərinə teoloji və etik münasibətin nəzəri əsasları"*** araşdırılır.

Qurani-Kərim təfsirçiləri bioetika problemlərinə dair ayələrin mövcudluğunu mütləq şəkildə təsdiq edə bilərlər. Biz müqəddəs Kitabımızda müasir dövrümüzdə aktual olan tibbi və əxlaqi problemlərin şərhinə dair onlarla ayəyə rast gəldik və onların mahiyyətinin açıqlanmasını olduqca vacib saydıq. Məsələn, insanın yaradılışı, insan həyatının dəyəri, insanın nəsəbi, əxlaqı, nəfsi, zinası, xətası və ölümü, evtanaziya, intihar, abort, homoseksualizm və digər bioetikanın məşğul olduğu sahələrə dair Quranda yetərincə ilahi kəlam vardır. Digər maraqlı məqam da ondan ibarətdir ki, Qurani-Kərim proqressiv şəkildə müsəlmanları elmə və biliklənməyə təşviq edir, cəmiyyətin xeyrinə olan müsbət yeniliklərdə öncül olmağı təqdir edir. Bu mənada, İslamı və Qurani-Kərimi doqmatik adlandıranların böyük yanlışı vardır.

İslam etikasının əsas prinsiplərini anlamaq üçün Qurani-Kərimdə insan barədə verilən hökm və tövsiyələrin təhlili olduqca əhə-

miyyətlidir. Çünki Müqəddəs kitabda şərh edilən sosial-iqtisadi və mənəvi həyat, habelə adət-ənənələr, davranış qaydalarının səciyyəvi və əxlaqi tələbləri nəinki İslam dininə riayət edənlərə, ümumilikdə bütün insanlara ünvanlanmışdır. Qurana görə, insanda özünü və ətraf mühiti dərk etmək üçün özünəməxsus bir qüvvə vardır. Bu qüvvə onun əql və zəkasıdır. İnsan hiss orqanları ilə dərk edə bilmədiyi varlıqları, xüsusilə fəlsəfi mərifəti və əxlaqi fəzilətləri məhz əql və düşüncə ilə əldə edə bilər. Quran insanın çox sirli və əsrarəngiz bir varlıq olduğunu bəyan edir. Burada biz insanın həm tərif və təşviq olunduğunun, həm də məzəmmətlənib danlandığının şahidi oluruq. O, bəzən mələklərdən üstün tutulur, bəzən hətta dörd ayaqlı heyvanlardan belə aşağı səviyyəyə endirilir. Quran insanın malik olduğu istedad sayəsində onun təbiətə hakim ola bilməsini və mələkləri öz ixtiyarına ala biləcəyini, eyni zamanda, öz çirkin əməlləri ilə Cəhənnəmin ən aşağı təbəqəsi olan "Əsfəlus-safilin"ə süqut edəcəyini bəyan edir. Deməli, insan taleyini özü müəyyən etməli, özünə aid olan bütün məsələlərdə son nəticəyə gəlməli, əxlaqi və etik təlimlərin rəhni sayılan ***insani dəyərlərə*** yiyələnməlidir.

İnsan digər canlılar kimi müxtəlif maddi və təbii cazibələrin təsiri altındadır - yuxuya, istirahətə, qidaya, cinsi əlaqəyə olan meyl onu maddə və təbiətə doğru sövq edir. Bəşər övladını digərlərindən fərqləndirən cəhət onu cəlb edən cazibələrin həm də qeyri-maddi yönümlü – mənəvi və ya ruhani olmasıdır. Bizə məlum olan və qəbul edilə mənəvi cazibələr: elm və bilik, əxlaqi yaxşılıq, gözəllik, pərəstiş və ibadət kimi məfhumlardan ibarətdir.

İslamın bütün dini dəyərləri və əxlaqi normativləri Allah kəlamı sayılan Qurani-Kərimə və Muhəmməd Peyğəmbərin hədislərini ehtiva edən Sünnəyə əsaslanır. Quran və Sünnə dini dəyərlərin mahiyyətini İslamın şərtləri, iman prinsipləri, şəri və əxlaqi kateqoriyalarla eyni kontekstdə şərh edir; yəni, kütlə şüurunun alışdığı, lakin köklərini və nəticələrini əxz edə bilmədiyi bütün anlayışların şərhi və izahı bu təməl mənbələrdə əksini tapır. Elə bir əxlaqi substant mövcud deyil ki, onun haqqında Müqəddəs Kitabda fikir söylənilməsin və ya münasibət bildirilməsin. İslam, ümumiyyətlə,

əxlaqi normativlərin toplusudur, buna görə də şəriətin təməl funksiyası əmrlər və yasaqlar, halallar və haramlar, savablar və günahlar barədə məlumat verməkdir. Şəriətin əxlaq prinsiplərindən biri şübhəli işlərdən çəkinməkdir. Şübhənin bir neçə forması vardır ki, bu barədə din psixologiyası ilə məşgul olan alimlərin maraqlı rəyləri nümunə göstərilə bilər. Nəhayət, sonuncu əsas prinsip haramın hamıya günah olmasıdır, yəni harama istisna yoxdur. Heç bir xoş niyyət haramı halal edə bilməz. İcazə verilməmiş hərəkət və əməllərə qadağan müsəlmanlar üçün məcburidir. İslam halal və haram məsələlərində dilindən, cinsindən, dərisinin rəngindən və milliyətindən asılı olmayaraq heç kimə fərq qoymur. Allah hamı üçün bir olduğu kimi, müqəddəs dinimizin qanunları da hamı üçün birdir. Allahın halal buyurduqları hamı üçün halal, haram buyurduqları isə Qiyamət gününə qədər haram və günah sayılır.

**II paraqraf** ***"Səhih Sünnədə və qüdsi hədislərdə etik problemlərin teoloji şərhi"***nə həsr olunmuşdur. İslam Peyğəmbərinin söz, əməl və təqrirləri bütövlükdə Sünnə adlanır. Əbəs deyildir ki, ümmətin alimləri Sünnənin İslam fiqhində Qurani-Kərimdən sonra ikinci mənbə olması barəsində ittifaq ediblər. "Sünnə" (ərəbcə "nümunə", "yol", yəni Peyğəmbərin həyat yolu) hədislərin bütöv bir toplusudur. Peyğəmbərin dövründə yaşamış səhabələr tərəfindən çatdırılan bu hədislərdə Rəsulullahın sözləri, hərəkətləri, davranışı, hər hansı işə bəraət qazandırması, icazə verməsi və s. barədə məlumatlar verilir.

Siyərşünaslıqda və səhabələrin bir çox rəvayətində İslam Peyğəmbərinin nəzakətli, incə düşüncəsi və üstün keyfiyyətə malik davranışlarına dair nümunələr verilir. Rəsulullah həm peyğəmbər, həm ümmət başçısı olması etibarilə hər zümrədən olan insanla daim ünsiyyətdə olmuş, dövlət və qəbilə rəisləri, zəngin insanlarla yanaşı, kasıblar, şikəstlər , kimsəsiz yetimlər, dul qadınlar və uşaqlara qədər hər kəslə görüşmüşdür. Sosial statusu, həyat tərzi, xasiyyəti, adətləri bir-birindən tamamilə fərqli bütün bu insanlarla hər mövzuda dialoq qurmuş, hər biri ilə nəzakət, anlayış və səbrlə gözəl davranmışdır. Rəsulullah heç bir şəraitdə davranışlarındakı

keyfiyyətdən, əsalətdən və üstün əxlaqdan əsla vaz keçməmişdir.

İslam Peyğəmbəri dini sahədə olduğu kimi, elm sahəsində də rəhbər şəxs olmuşdur. Peyğəmbərimiz bir çox hədislərində elmin son nailiyyətlərinə işarələr etmiş, təqarubu-zaman (vaxtın sürətli keçməsi) dövrünün yaşanacağını bildirmişdir [13]. Rəsulullah qarşıya qoyulan məqsədlə onu həyata keçirmə arasında olan vaxtın çox daralacağını, məsafələrin qısalacağını, hədəfə daha tez çatılacağını bildirərək elmin və texnologiyaların sürətlə inkişafına işarə etmiş, rabitə və telekommunikasiya sahəsində güclü irəliləyişlərin olacağını əsrlər əvvəl xəbər vermişdir.

Peyğəmbərimizin əkinçilik sahəsi ilə bağlı insanlara müjdələri olmuşdur. Belə ki, Rəsulullah bir nardan bir dəstə insanın yeyib doyacağını xəbər vermişdir. Bu isə kənd təsərrüfatında genetik modifikasiya kimi yeniliklərin olacağına işarədir və bu yeniliklər sayəsində iyirmi adamın yeyə biləcəyi narların olacağı, hətta bir nar qabığının altında bir insanın kölgələnə biləcəyi bəyan edilir. Ümumiyyətlə, Quran və Sünnədə müxtəlif elm sahələrinin gələcəkdə olacaq inkişafına və elmi-texniki tərəqqinin son nailiyyətlərinə işarələr edilmiş, eyni zamanda bu hədəfə çatmaq bəşəriyyətə təşviq olunmuşdur.

Bu gün bioetika elminin qlobal səviyyədə toxunduğu problemlərin kökündə dayanan əksər məsələlər vaxtı ilə Rəsulullahın diqqətindən yayınmamış və onların barəsində qiymətli kəlamlar söyləmişdir. Onlardan mövzuya uyğun olaraq bəzi qüdsi hədislər dissertasiya işində nəzər-diqqətinizə çatdırır və qeyd edirik ki, keçmiş üləmalar və müasir fəqihlər bioetkanın mübahisəli problemlərinin həllində mütləq şəkildə bu mənbələrə istinad edirlər.

Günümüzdə bioetika ilə bağlı problemləri işıqlandırarkən Sünnəyə müraciət olunması həmin problemlərin həlli baxımından İslam fəqihlərinin və alimlərinin seçdiyi düzgün yol hesab edilməlidir. Çünki həm tibbi-deontoloji problemlərin araşdırılmasında, həm də biotexnoloji nailiyyətlərin uzlaşdırılmasında dini-fəlsəfi və etik postulatları deduktiv metodlarla təhlil etmək üçün Sünnə

---

[13] Bax: Buxari, Fitən, 25; Müslim, 11.

təməl mənbələrdən biridir. Onun bir çox mübahisələrin həllində münsiflik məziyyətini bilən mühəddislərdən səhabə Ubey ibn Kəəbin dediyi kimi: "Sünnə ilə yolu tutub gedin! Sünnəyə riayət etmək, onun üzərində ictihad və ixtilaf etməkdən daha əfzəldir".

**Üçüncü paraqraf *"İslam bioetikasında ekologiyaya və intellektual innovasiyalara münasibət"*** adlanır və müasir dövrdə cəmiyyətimizdə, planetimizdə baş verən qlobal ekoloji problemlərin həlli yollarını, perspektiv təhlükələrini araşdırmaq məqsədi daşıyır. Getdikcə artmaqda olan ekoloji fəlakətlər və nüvə terrorizmi təhlükəsi qarşısında yeni, dünyəvi və humanist elmi nəzəriyyələrə və təcrübələrə bəşəriyyətin böyük ehtiyacı vardır. Belə bir elmin fundamental əsaslarını müqəddəs Qurani-Kərimdə və hədisi-şəriflərdə hər zaman tapmaq mümkündür. Müsəlman mədəniyyəti Allah-taalanın bütün məxluqatına, o cümlədən təbiətə ehtiram hissini daima təbliğ etmişdir. İslam mədəni və fəlsəfi fikrində təbiətə insan evi kimi baxılmışdır: insan bu evdə yaşamalı, bu evi elə saxlamalıdır ki, onun bolluğu və firavanlığı əskik olmasın. Təsadüfi deyil ki, Muhəmməd Peyğəmbər əkilmiş hər bir ağacı sədəqə saymış, səhabələrini də ağaclara qulluq etməyə, onları mühafizə etməyə sövq etmişdir. *"Heç zaman bar verən ağacı kəsməyin və abad yerləri dağıtmayın!"* – deyən Rəsulallah yaradılışa ehtiram və sevgisini ümmətinə də təlqin etməyi bacarmışdır.

Bu gün təbiətə əsl insani münasibətin bərqərar edilməsi işinə İslam da öz payını verməlidir və zənnimizcə, bu ondan ibarət olmalıdır ki, İslamın təbiət anlamı, ətraf mühitə insanın dərrakəli müdaxiləsi, dünyanın Allah tərəfindən qoyulan ilahi nizamının pozulmaması barədə müsəlman təfəkkürü geniş təbliğ olunsun. Müasir müsəlman alimlərinin dünyanın qlobal ekoloji proseslərində iştirakını təmin etmək, elmi nailiyyətlərdən sağlam və dəyərli olanları mənimsəmək, eyni zamanda, dinin ən ümdə qayələrini qoruyub saxlamaq zamanı gəlmişdir.

"Ətraf mühit" mövzusu Amerika Birləşmiş Ştatlarında E.A.Birge və H.C.Couels (1891), İsveçrədə F.Forel (1892), Danimarkada E.B.Varming (1896) kimi elm adamları tərəfindən müzakirəyə çıxa-

rılsa da, bir çox tədqiqatçılar bu sahənin ilk araşdırıcılarının Şərq müsəlman mütəfəkkirləri olduğunu təsdiq edirlər. Belə ki, XI əsrin böyük korifeylərindən sayılan Biruni "təbiət ekonomisi" məfhumu ilə təbiətə hakim olan və bu gün bizim ekosistem adlandırdığımız təbii tarazlıq problemlərinə diqqət çəkmişdir. Qeyd etmək lazımdır ki, müasir dövrdə ekoloji məsələlər ilə məşğul olan İbrahim Sediyani, Mehmet Bayraktar, İbrahim Üzdemir, Fazlun Xalid, Seyyid Hüseyn Nəsr kimi tanınmış müsəlman alimlərinin adlarını çəkmək olar. Harvard Universiteti Dünya Dinləri Araşdırma Mərkəzinin nəşr etdiyi və türkcəyə tərcümə olunan "İslam ve Ekoloji / Bahsedilmiş Bir Emanet" kitabında mövzu ilə əlaqədar çox diqqətəlayiq məlumatlara rast gəlinir.

İslam bitkilər aləminin, heyvanların yaşam və artım haqlarının insanlar tərəfindən qorunmasına, ekoloji tarazlığa, su qaynaqlarının şüurlu istismarına, yaşıllaşdırmaya, ətraf mühitin təmizliyinə böyük önəm verdiyi kimi, "əyri şəhərləşmə" məfhumu ilə bilinən şəhər urbanizasiyasına da müstəsna diqqət yetirmişdir. Əyri şəhərləşmə bu gün bütün böyük şəhərlərin ortaq bəlasıdır – kommunikasiya, erqonomika, çevrə infrastrukturu, zibil və çirkabın təmizlənməsi, yol və memarlıq problemlərini nəzərə almadan tikilən imarətlər, binalar və gecəqondular böyük ekoloji uyğunsuzluqlar və sosial partlayışlar üçün şərait yaradır. İslam mədəniyyəti şəhərsalmada elə üzvi uzlaşmadan istifadə etmişdir ki, o bu günə qədər modern şəhər memarlığı üçün nəzəri bazis sayılmaqdadır. Belə ki, müsəlman şəhərlərində evlər, camilər, bazarlar, hamamlar və şəhər həyatının digər təməl ünsürləri təbii faktorlardan maksimum yararlanma əsasına dayanırdı. Evləri sərinlətmək üçün nəzərdə tutulan küləkçəkənlərdən tutmuş, qış tədarükü üçün yeraltı zirzəmilərə qədər hər bir detalda təbiilik prinsipinin qorunmasının şahidi oluruq.

İslamın ekologiyaya və ətraf mühit problemlərinə münasibətinin bir neçə konkret aspekti mövcuddur ki, bu müddəaların da hər biri özünün nəzəri mənbəyini Qurani-Kərimdə, təcrübi xassələrini isə Peyğəmbərin hədislərində real şəkildə büruzə verməkdədir. Hər şeydən əvvəl, bütün bizi əhatə edən aləm və ekosistem Allahın

yaratdığı və kainatın əşrəfi adlandırdığı insan üçündür. Qurani-Kərimdə insan üçün yaradılmış nemətlər içərisində - su, hava, bitkilər aləmi, torpaq, heyvanlar və quşlar  əlahiddə substant şəklində araşdırılır və təqdim edilir.

Bu gün bioetika elmi-texniki, yeni texnologiyalar və onların səhiyyədə, ərzaq sənayesində və kənd təsərrüfatında tətbiqi, biotibbi tədqiqatlar, dərman preparatlarının sınaqdan keçirilməsi, həkim-pasiyent münasibətləri praktikası və digər yeniliklərlə bağlı olan fəlsəfi, etik və hüquqi problemləri əhatə etməklə yanaşı,  insanlar və heyvanlar üzərində aparılan elmi və biotexnoloji eksperimentlərin etik və hüquqi aspektlərini, gen mühəndisliyi, süni intellekt, informasiya texnologiyaları, kompüterləşmə, robotlaşma kimi sahələrin fəlsəfi, etik və sosioloji xarakteri ilə bağlı məsələləri də müzakirə edir və öyrənir.

Süni intellekt çox yüksək səviyyədə ixtisaslaşmış sahədir, onun çoxlu sayda bölmələri vardır. Çox zaman süni intellektin bir sahəsi digər sahəsi ilə qarşılıqlı əlaqədə olmur. Onun bəzi sahələri isə o dərəcədə inkişafa nail olmuşdur ki, onlar artıq ayrıca bir ixtisas kimi fəaliyyət göstərirlər. İnsan intellektindən daha güclü bir intellektin yaradılması süni intellektin əsas məqsədlərindəndir. Süni intellektin nəyə aid edilməsi sualına birmənalı cavab yoxdur. Bu durumda dini xəbərdarlıqların unudulması və fəlsəfi təfəkkürün arxa plana keçməsi də müşahidə olunur. Halbuki Fəlsəfə tarixində heç də həmişə İnsanın mahiyyətinə bioloji, sosial və mənəvi-psixoloji amillərin vəhdəti kimi baxılmamışdır. Antik fəlsəfə insanı “mikrokosm” adlandıraraq ona kainatın bir hissəciyi kimi baxmışdır. İslam, xristian və digər dinlər insana İlahi varlıq, yaradılmışın əşrəfi, ruh və bədənin vəhdəti kimi münasibət bəsləmişlər. İdealist fəlsəfə bütünlükdə insana ideal, ruhi, mənəvi tamlıq kimi tərif verir. Materialist fəlsəfə isə insana biopsixo-sosial varlıq kimi baxmaqla yanaşı, onu bəşər cəmiyyətinin yaratdığı ən qiymətli sərvət hesab edir.

Hazırda süni intellekt sahəsində əldə edilmiş uğurlar insanın daha nələrə qadir olması sualını görünməmiş dərəcədə aktuallaşdırır. Bu problematikanın fövqündə duran Fəlsəfə insana gündəlik

problemlərə tarixi perspektivlər nöqteyi-nəzərindən baxmağa və müvafiq intellektual potensiala əsaslanmağa kömək edir. Fəlsəfi təfəkkür insanlara biologiya, genetika, informatika, koqnivistika, hüquq, iqtisadiyyat, politologiya və digər sahələrdə əldə edilmiş bilikləri hamı üçün anlaşıqlı dildə ümumiləşdirməyə və şərh etməyə imkan yaradır.

**III Fəsil** " Sekulyar cəmiyyət və İslam bioetikası: problemlər, yanaşmalar, tezislər" adlanır və özünün mahiyyətinə görə dissertasiya işinin əsas məna yükünü daşıyır. Üç paraqraf və doqquz yarımparaqrafı əhatə edən bu fəsildə müasir qloballaşma dönəmində İslam fiqhinin sekulyar bioetikanın ən problematik məsələlərinə münasibəti araşdırılır.

Müsəlman dünyasının əxlaq qaydaları, cəmiyyətlərdəki maddi-mənəvi problemlər, milli-mədəni dəyərlər və ailə institutu sistemi haqqında hüquqi biliklərin toplusu Fiqhdir. Fiqh müsəlmanların əxlaq qaydaları haqqında İslam doktrinası (hüquqşünaslıq) və ya ictimai qaydaların İslam kompleksi (geniş mənada, müsəlman hüququ) mənasına gəlir. "Fiqh" kəlməsi ərəb mənşəli "əl-Fiqh" sözündən olub, lüğəti mənası "dərindən başa düşmə", "dərin bilik" deməkdir. Müasir dövrdə populyar olan bioetika problemlərinə dair qərar və bəyanatlar bilavasitə Fiqh Akademiyaları və ya fiqh məktəbləri tərəfindən hazırlanır.

XX əsrin II yarısından etibarən isə hüquq fiqhi bəzi müsəlman ölkələrində (Səudiyyə Ərəbistanı, Fars körfəzi ölkələri, Yəmən, Liviya, İran, Pakistan və s.) şəxsi status və cinayət hüququnda öz əhəmiyyətini qoruyub saxladı.  Hazırda çoxsaylı müsəlman ölkələrinin konstitusiyası fiqh qanunlarına əsaslanır və bu zaman hüquqşünaslıq fiqhi ilə hüquq fiqhinə müraciət edilir[14] İslam fiqhi, ümumilikdə, Quran və Peyğəmbər Sünnəsindəki  dəlillərdən çıxarılan

---

[14] Bax: Məhəmməd ibn əl-Həsən əş-Şeybani, "əl-Cami əl-kəbir", Qahirə 1936; Burhan əd-Din Əli əl-Mərqinani, "əl-Hidayə", 1-4, Daş., 1983; Mühyi əd-Din ən-Nəvai, "Minhəc ət-Talibin", 1-3, Bətaviyə, 1882-1885; Məhəmməd ibn Cuzayy əl-Qərnəti əl-Maliki, "Qavanin əl-əhkam əş-Şəriyyə və məsail əl-furu əl-fiqhiyyə", Beyrut 1968; İbn Xəldun, "Müqəddimə", 435-436, 449-451; İbn əl-Bəzzaz, "Fətava", 1-3, Kazan 1889.

şəriət hökmləri ilə bağlı olan bir elm kimi hüquqşünaslıq fiqhi ilə hüquq fiqhinin özəyini təşkil edir. İslam fiqhinin çoxsaylı mənbələri arasında istislah, rəy, qiyas və ictihad kimi kateqoriyalar mühüm yer tutur.

İslam fiqhinin müasir dövrdə yaranan sekulyar bioetika problemlərinə münasibətini *istislah, rəy, qiyas və ictihad* baxımından əlahiddə şəkildə şərh etmək – müxtəlif İslam məzhəbləri və cərəyanlarının populyar əxlaq məsələlərinə münasibətini sərgiləmək məqsədi daşıyır. Biotibbi texnologiyaların yaratdığı yeni etik problemlərin həlli üçün əsrimizin müsəlman hüquqşünasları və fiqh alimləri mütəmadi görüşlər keçirir, müəyyən hökm və qərarlar hazırlayırlar. Bu hökm və qərarların əhatə və təsir dairəsi barədə mülahizələr Azərbaycan müsəlmanları üçün də böyük maraq kəsb edir.

Müasir dövrün sekulyar problemlərindən olan ***"Klonlaşdırma"*** haqqında İslam alimlərinin fikirləri dissertasiyanın ***üçüncü fəslinin birinci paraqrafında yarımparaqraf*** şəklində yer alır. İngiliscə "cloning", "klon" sözündən olan klonlaşdırma vegetativ çoxalma deməkdir. Vegetativ çoxalma cinsi hüceyrələrin iştirakı olmadan gedən çoxalmaya deyilir və belə çoxalma orqanlar, toxumalar, həmçinin somatik hüceyrələr vasitəsi ilə gedir. Klon isə klonlaşdırma nəticəsində alınan canlı orqanizm adlanır.

Klonlaşdırmaya şəriət ehkamları prizmasından baxdıqda qeyd etmək lazımdır ki, bu yanaşma günümüzdə müxtəlif aspektlərin ortaq məxrəci şəklindədir. Belə ki, əksər İslam alimləri ittifaq edirlər ki, klonlaşdırma Allah-taalanın yaratdığı xilqətdə, yəni canlı varlıqda dəyişiklik etmək, həmçinin bu canlı varlığın fitrəti ilə oynamaq mənasına gəldiyindən dini baxımdan haram və yolverilməzdir. Bəzi alimlər isə İslamın elmə yüksək diqqət və dəyər verdiyi mövqedən çıxış edərək dinin qəti qadağa qoyduğu, yəni haram saydığı məsələlər xaricində və bir sıra müəyyən şərtlər çərçivəsində yalnız heyvanların klonlaşdırılmasına icazə vermiş və bu şərtləri iki qismə bölmüşlər: a) heyvan klonlaşdırılması insanlara sağlamlıq baxımdan xeyir gətirməli və ya xeyri ziyanından çox olmalıdır; b) heyvanlara tibbi təcrübə zamanı xətər yetirilməməlidir, yəni heyvanlar

şikəst edilməməli və onlarla qəddarcasına davranılmamalıdır.

Avropa Şurasının üzvü olan 43 dövlətdən 24-ü, o cümlədən Azərbaycan Respublikası 12 yanvar 1998-ci ildə insanın klonlaşdırılması ilə bağlı tədqiqatlar aparılmasını qadağan edən protokol imzalamışdır. BMT isə 19 fevral 2005-ci il tarixdə klonlaşdırmanın bütün variantlarını qadağan edən qanunvericilik aktı qəbul etmiş və hesab etmişdir ki, bu təcrübələr insanın ləyaqətinə, onun həyatının müdafiə olunmasına ziddir.

Bu məsələyə dair son müddəalar Türkiyə Cümhuriyyəti Diyanət işləri Başqanlığının koordinatorluğu ilə 2017-ci ildə İstanbulda Avrasiya Fətva Məclisinin 2-ci toplantısında qəbul edilmişdir. Məclis qərarına əsasən, *“.. İslama görə, insan saygın və möhtərəm bir varlıq olduğundan vücudunun heç bir hücrəsi və orqanı (sperma, yumurta və embrion da daxil olmaqla) bağışlana, satıla və təcrübələr üçün ticarət oluna bilməz” . “ ..Genetik araşdırmaların insan nəslini və təbiətin tarazlığını pozacaq şəkildə yapılması qəbul ediləməz”* [15]. Bu əməliyyatlar yalnız heyvan nəslini çoxaltmaq üçün istifadə edilərkən caizdir.

Müasir dövrümüzün mübahisəli məsələlərindən biri də **ikinci yarımparaqrafda** şərh edilən ***“Evtanaziya, İntihar və Fədakarlıq”*** arasındakı fərqli görüşlərin müzakirəsi ilə bağlıdır. Evtanaziya ağır, sağalmaz vəziyyətdə olan xəstələrin öz istəyi və ya yaxınlarının istəyi ilə həyatlarına son qoyulmasıdır. Bu termin “asan ölüm” kimi ilk dəfə XVI əsrdə elmə gətirilib, 1984-cü ildə Niderlandda leqallaşdırılıb və dünyada belə xidmət göstərən ilk klinika Hollandiyada açılıb. Avropada yalnız Belçika, Hollandiya, Lüksemburq və İsveçrədə evtanaziya haqqında qanun qəbul edilib. Azərbaycanda isə tibb işçilərinə ölümün tezləşdirilməsi haqqında (evtanaziya-red.) pasiyentin özünü, onun qohumları və ya maraqlarını təmsil edən şəxslərin xahişini yerinə yetirməyə icazə verilmir. Bu “Pasiyentin hüquqları haqqında” qanun layihəsində öz əksini tapıb və

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 29.12.2011-ci il

[15] Avrasiya Fetva Meclisi 2. Toplantısı sonuc bildirgesi. İstanbul 20.02.2018. TC Din hizmetleri Müşavirliyinin 040/12 saylı məktubu.

tarixli 137 nömrəli əmri ilə təsdiq edilmiş "Həkimlərin etik davranış qaydaları"nda qadağan edilib. Qeyd etməliyik ki, Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəlsəfə üzrə fəlsəfə doktorluğu mövzusu bilavasitə evtanaziyanın problemlərinə həsr olunmuşdur. Çox təqdirəlayiq haldır ki, f.f.d. M. Əliyeva evtanaziyanı fəlsəfi-etik aspektdən araşdıraraq problemin mahiyyətində dini əxlaq kontekstinin olduğunu vurğulamışdır [16].

Fiqh məktəblərinin  gəldiyi ümumi qənaət bundan ibarətdir ki, insanın hər hansı bir xəstəlik, çətinlik, sıxıntı üzündən özünə ölüm istəməsi məkruhdur. Səhihi-Buxari və Müslimdə bu mövzu ilə əlaqədar belə bir hədis rəvayət edilməkdədir: *"Sizdən biri düçar olduğu xəstəlikdən dolayı ölümünü istəməsin. Əgər mütləq istəyəcəksə, belə desiin: "Allahım, yaşamaq daha xeyirli isə məni yaşat; ölüm daha xeyirli isə məni öldür!" [17].*

Azərbaycanda ildən-ilə artan intihar stastistikası ictimaiyyəti narahat etməkdədir. AR Səhiyyə Nazirliyinin, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin, AR Daxili İşlər Nazirliyinin apardığı təhlillərə və verdikləri məlumatlara əsasən demək olar ki, Azərbaycanda əhalinin hər 100 min nəfərinə düşən intihar hallarının sayı 0,6-0,8 faiz təşkil edir, kişilər qadınlara nisbətən daha çox intihar edir, ən narahatedici məqam isə intiharların "gəncləşməsi", 20-25 yaş arası gənclərin və azyaşlı uşaqların həyatlarına son qoymasıdır. Bu son dərəcə fəlakətli və düşündürücü statistika istər-istəməz problemin dini-əxlaqi kontekstdən araşdırılmasını labüd edir. İslama görə, insan -  dəyərli bir varlıqdır. Bu varlığın canını, malını və namusunu İslam öz mühafizəsi altına almışdır və onlara toxunmağı qadağan etmişdir. Qurani-Kərimdə Allah qullarının xüsusiyyətləri sadalanarkən: ***"Hər kəs bir mömin şəxsi qəsdən öldürərsə, onun cəzası əbədi qalacağı Cəhənnəmdir. Allah ona qəzəb və lənət edər,*** (Axirətdə) ***onun üçün böyük əzab hazırlar!"***

---

[16] Алиева М.А. Эвтаназия и проблема гуманности в медицине // Автореф. дис. кандидата философских наук. – Баку, 2005. -25 с.

[17] Akseki A.H. Ahlak İlmi ve İslam Ahlakı / A. Akseki - Ankara: Nur yayınları-1991.-s.204.

– deyilir [Nisa, 93].

***Fədakarlıq*** və intihar fərqli anlayışlardır. Belə ki, döyüşlərdə, xalqa, millətə, cəmiyyətə aid bir iş uğrunda fədakarlıq göstərərək özünü təhlükəyə atmaq, canını fəda etmək intihar deyildir. İntiharla fədakarlığın qaynaqları ayrıdır. İntiharın qaynağı ümidsizlik, əqidəsizlik, qorxudursa, fədakarlığın qaynağı əqidə, iman, yüksək vətənpərvərlik, ülvi duyğu və düşüncələrdir. Buna görə də dinimizdə intihar pisləndiyi, haram buyurulduğu halda, fədakarlıq təqdir edilərək yüksək qiymətləndirilir. İslam alimlərinin bir qismi belə hesab edir ki, müsəlman döyüşçü düşmənlə savaşda öləcəyinə əmin olduğunu bilsə, fədakarlıq edərək canına qəsd edə bilər.

Bəzi fəqihlər, o cümlədən imam Əbdüləziz bin Baz, Muhəmməd əl-Musaymin, Salih ibn Fauzan kimi tanınmış ilahiyyatçılar belə hesab edirlər ki, özünü döyüş meydanında partlatmaq intiharın bir növüdür və bu mənada qəbuledilməzdir. Canlı bomba anlayışı İslama zərər vuran ifadədir – müasir dönəmdə bu, islami radikalizm təzahürü kimi anlaşılır, qarşı cəbhəni əks-cavaba sövq edir və insanları İslamdan uzaqlaşdırır ki, bu da özlüyündə yolverilməzdir. İslamın ruhani fəlsəfəsi təsbit edir ki, şəhidlər sağdır, Uca Allahın müsafirləridir və Allah qatında ruziləndirilirlər. Şəhidlər üçün peyğəmbərlərin belə, qibtə etdiyi məqamlar vardır, çünki onların şəfaəti məqbuldur. Deməli, fədakarlıq göstərərək şəhidlik mərtəbəsinə yüksələn fədailər həqiqətdə əsl Allah dostlarıdırlar. Azərbaycan xalqı üçün böyük fəxarətdir ki, Allah dostları sırasında 44 günlük Vətən müharibəsində canı və qanı ilə doğma Qarabağ torpaqlarını işğaldan azad edən fədakar Azərbaycan şəhidləri də vardır!

**Üçüncü yarımparaqraf *“Süni mayalanma”*** adı altında həyata keçirilən müasir tibbi əməliyyatlara dair müxtəlif İslam məzhəblərinin və müasir fiqh alimlərinin fərqli görüşlərinin sərgilənməsinə həsr edilmişdir və bir sıra hallarda məzhəb üləmalarının görüşlərindəki fərqliliyi tədqiq edir. Tibb elmi sahəsindəki nailiyyətlərin artması nəticəsində meydana gəlmiş yeni mövzulardan biri də süni mayalanmadır. Bu mövzu sekulyar bioetikanın, xüsusilə də müsəlman bioetikasının maraq dairəsində olduğu üçün onu üç mərhələdə

araşdırmaq qərara alınmışdır.

Birinci mərhələdə süni mayalanmanın funksiyaları, dünyada ilk dəfə hansı ölkədə və hansı canlının üzərində tətbiq edildiyini, məsələnin İslam dini, yəni İslam şəriəti baxımından halal olub-olmadığını və İslam Fiqh Akademiyasının süni mayalanma ilə əlaqədar verdiyi qərarlar nəzərdən keçirilir. Təbii ki, şəri baxımdan dedikdə süni mayalanma prosesinin haram müqəddimələrə əsaslanmadan həyata keçirilməsi nəzərdə tutulur. Daha sonra isə məsələnin hüquqi cəhətini, süni mayalanma nəticəsində dünyaya gəlmiş körpənin hansı hüquqi statusa malik olduğunu, qohumluq münasibətlərinin hansı formada olduğunu dəyərləndirmək lazımdır. Çünki onun əsl-nəsəbinin məlum olması nəticəsində himayə, nikah və vərəsəlik kimi İslamda vacib olan məsələlər də öz həllini tapmış olur. İkinci mərhələdə süni mayalanmanın müxtəlif variantları barəsində danışacaq və həmin variantlarla bağlı fəqihlərin mövqeyini öyrənilir. Üçüncü mərhələdə isə ümumiyyətlə süni mayalanma haqqında İslam hüquqşünaslarının mövqeyini tədqiq edilir və sözügedən məsələ ilə bağlı gəlinən nəticəni təqdim edilir.

Süni mayalanma problemi yarandığı gündən bəri İslam fəqihlərinin mübahisə və müzakirə mövzusudur. Əvvəllər bəzi tanınmış şiə fəqihləri [18] bu işin yolverilməz olduğunu bildirmişlər. Hazırkı dövrdə isə şiə fəqihlərinin böyük əksəriyyəti onun caiz (halal) olduğunu bildirirlər[19]. Bu işi halal bildirənlərin sübutu odur ki, burada həm spermatozoid, həm də yumurta hüceyrələri ərlə-arvadın özünə məxsusdur, sadəcə mayalanma prosesi qeyri-təbii üsulla aparılıb. Bunun isə haram olmasına heç bir sübut yoxdur. Əqli və şəri bəraət də (üsuli-fiqh elminin terminlərindəndir) bunun caiz olduğuna dəlalət edir. Zina və ya spermanın başqa qadının uşaqlığına nəql edilməsi kimi haram əməllər isə bu işə aid edilmir.

---

[18]Ayətullah Borucerdi və Ayətullah Milani kimi fəqihlər. Əsədullah İmami, "İran və Fransa qanunvericiliyində qohumluq münasibətləri" monoqrafiyası, səh.362.

[19] Ayətullah əl-üzma Xoyi, "Tozihul-məsail", Qum, Mədinətul-elm, Hicri-1412, səh.

Homoloq mayalanma ilə bağlı sünni fəqihlərin mövqeyi fərqlidir. Belə ki, sünni fəqihlərin əksəriyyəti müəyyən şərtlərə əməl etmək xüsusunda bu işin halal olduğunu bildirdiyi halda, Şeyx Əhməd əl-Həcci kimi azsaylı fəqihlər onun haram olduğunu bildirmişlər [20]

Süni mayalanma ilə əlaqədar İslam Fiqh Akademiyası bir neçə qərar vermişdir. İslam Konfransı Təşkilatına (indiki İslam Əməkdaşlıq Təşkilatı) bağlı olan İslam Fiqh Akademiyası 25-28 yanvar 1981-ci ildə Səudiyyə Ərəbistanında toplanan III İslam Ölkələri Dövlət və Hökumət başçıları zirvəsində verilmiş qərar əsasında qurulmuşdur. Mərkəzi Ciddə şəhərində olan bu qurumun məqsədi İslam hüququ sahəsində işlərə yardım etmək və müasir dövrdə ortaya çıxan problemlərə İslam qanunvericiliyinə uyğun həll tapmaqdır.

Bu aktual mövzunun davamı olaraq **dördüncü yarımparaqrafda** müsəlman fəqihlərinin ***"Abort"*** mövzusuna münasibəti şərh edilir.

Abort ananın və ya başqasının maddi-mənəvi təhriki və fiziki müdaxiləsi ilə dölün ana rəhnindən çıxarılaraq öldürülməsidir. Qurani-Kərimdə və Rəsulullahın hədislərində dölün qəsdən öldürülməsi ilə bağlı ayrıca açıqlama yoxdur. Bu isə həmin dövrdə dölün öldürülməsi kimi icraatın olmaması ilə bağlı ola bilər. Qurani-Kərimdə "qız uşaqlarının diri-diri torpağa basdırılaraq öldürülməsi" cinayətinə açıq şəkildə, dölün ana bətnində öldürülməsi hadisəsinə isə ümumi qaydalarla toxunulub: ***"Diri-diri torpağa gömülən körpə qızdan: "Axı o hansı günaha görə öldürüldü?" - deyə soruşulacağı zaman..."*** [Təkvir, 8-9]. Xüsusilə "haqsız yerə insanın öldürülməsi"ni qadağan edən ayələrə dölün öldürülməsi də daxildir: ***"...hər kəs bir kimsəni öldürməmiş*** (bununla da özündən qisas alınmağa yer qoymamış) və Yer üzündə fitnə-fəsad t***örətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə*** (ölümdən qurtarsa), ***o, bütün insanları dirilt-***

---

[20] Məhəmməd Xalid Mənsur, "əl-Əhkam ət-tibbiyyə", Beyrut, Darun-nəfais, Hicri-1420, səh. 83-84.

***miş kimi olur..."*** [Maidə, 32].

Qeyd etmək lazımdır ki, abortun hökmü barəsində İslamda müxtəlif məzhəb alimləri söz açıblar, məsələni ətraflı şəkildə və fərqli surətlərdə müzakirə ediblər. Ümmətin bütün alimləri ittifaq ediblər ki, ana bətnindəki uşağa ruh üfürüldükdən sonra onu abort etdirmək haram və cinayətdir. Bu məsələdə bildiyimiz qədəri ilə heç bir alim ixtilaf etməyib. Buna görə də abort etdirən tövbə etməli və bilməlidir ki, hətta bu işin kəffarəsi də (iki ay bir-birinin ardınca oruc tutmaq) var: "İslam hüququna görə, ana bətnindəki rüşeymə qarşı bir cinayət işləndiyi təqdirdə "qürrə" (həmin cinayətin cəzası) deyilən bir təzminat ödənilir. Uşaq saldırmanın qəsdən və ya səhvən baş verməsi, yaxud ata-ana tərəfindən həyata keçirilməsi bu cəzanı aradan qaldırmır. Qürrə adlanan təzminatın miqdarı ayrı-ayrı hakimlər tərəfindən deyil, dövlət tərəfindən müəyyənləşdirilməlidir. Çünki bu təzminat hakimlərin ümidinə qalsa, onu hərə bir cür təyin edər. Abort zamanı qürrə ilə birlikdə kəffarənin (günahı yumaq üçün yerinə yetirilən müəyyən bir əməl) vacib olub-olmaması məzhəblər arasında ixtilaf mövzusudur. Hənəfilərlə Malikilər kəffarənin vacib deyil, məndub (bəyənilən əməl) olduğunu, Şafeilər və Hənbəlilər isə qürrə ilə yanaşı, kəffarənin də vacib olduğunu qeyd edirlər"

Sonda qeyd etmək istərdik ki, müsəlman ölkələrində ailənin planlaşdırılması problemi təqribən 1960-cı ildən sonra ortaya çıxmışdır. Son bir neçə onillik ərzində müxtəlif müsəlman ölkələrində analığın mühafizə edilməsi (Rabat, 1971), uşaqlığın mühafizəsi (Qahirə, 1977), İslam və doğum (Küveyt, 1983), İslam və demoqrafiya (Cakarta, 1990), demoqrafik artım və mənəviyyat (Qahirə, 1991), demoqrafiya və inkişaf (Qahirə, 1994) mövzularında keçirilən elmi konfrans və simpoziumlarda ailənin planlaşdırılması daha çox əhalinin maddi rifah halının yaxşılaşdırılması, gənc nəslin mənəvi tərbiyəsinin gücləndirilməsi, ailə-nikah münasibətlərinin mədəni səviyyədə qurulması ilə əlaqələndirilir, əhali artımının qarşısının süni yolla alınması isə yolverilməz hesab edilir.

**Beşinci yarımparaqraf** müasir tibbi problemlərdən olan

***“Orqan və hüceyrə transpalntasiyası”*** mövzusuna həsr olunmuşdur. Transplantasiya insan həyatının xilas edilməsi və sağlamlığının bərpası üçün cərrahiyyə əməliyyatı aparmaqla xəstədə olmayan, yaxud zədələnən orqan və ya hüceyrələrin donorun və ya insan meyitinin orqan və ya hüceyrələri ilə əvəz edilməsidir.

İslam hüququna görə, orqan və hüceyrə transplantasiyasının caiz olmadığı, caiz olduğu və şərti-caiz olduğu görüşlər vardır. [21]

İslam Fiqh Akademiyası insan həyatının xilasına doğru yönələn, eyni zamanda, bu istiqamətdə ciddi mübahisələrə səbəb olan orqan və hüceyrə nəqli mövzusu üzərində ciddi araşdırmalar aparmış və bu barədə müvafiq qərarlar vermişdir. Xülasə olaraq orqan və hüceyrə nəqlini caiz olma baxımından belə ümumiləşdirmək olar:

Nəqlin heç bir şəkildə edilə bilməyəcəyini ifadə edənlərin fikirləri qatı, istifadə etdikləri dəlillər isə kifayətsiz görünməkdədir. Bununla yanaşı, nəqlə mütləq mənada caiz demək də cəsarət tələb edən bir məsələdir. Problemlərə həll axtarılarkən sadəcə həmin günün şərtləri deyil, eyni zamanda, gələcəkdə baş verə biləcək vəziyyətlərin də göz önünə gətirilməsi vacibdir. Bu baxımdan, həkimlər bu gün nəqlə mütləq icazə verdikləri təqdirdə nəql üzərində işləyərək transplantasiyanın inkişafında irəliləyiş etsələr də, bunun xaricində yeni alternativlər gündəmə gələcək və müxtəlif problemlər yaranacaqdır. Məsələyə dövrümüzdəki tibbi irəliləyiş nöqteyi-nəzərindən yanaşdıqda, bu gün üçün transplantasiya yeganə həll kimi görünməkdədir. Deməli, orqan və hüceyrə nəqli şərti-caiz şərtlərinə uyğun olaraq məqbul bir həll ola bilər.

Azərbaycanda “İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında” Dövlət Qanunu 1999-cu ildə qəbul edilmiş və AR Prezidenti Heydər Əliyev tərəfindən imzalanmışdır. Preambluasına əsasən, bu Qanun müasir elmi nailiyyətlərə və tibbi təcrübəyə əsaslanaraq insan orqan və toxumalarının transplantasiyası (köçürülməsi) ilə bağlı münasibətləri tənzimləyir. 2018-ci ildən etibarən Azərbaycanda orqan köçürülməsi ilə bağlı Milli Məclis tərəfindən

[21] Haylamaz R. Islam Hukukuna Göre Orqan ve Doku Nakli / İzmir: Işık yayınları, -1993,-s.129

yeni qaydalar hazırlanmağa başlanıb. Bu qaydalar Milli Məclisin Səhiyyə Komitəsində orqan nəqlinin genişləndirilməsi ilə bağlı iclasda müzakirəyə çıxarılıb və 2020-ci ilin noyabr ayında MM sözügedən Qanunu qəbul edib.

**Altıncı yarımparaqraf *"Plastik əməliyyatlar"*** adlanır. Məlumdur ki, plastik əməliyyat insan bədənində meydana gələn bir dəyişikliyi düzəltmək və ya mövcud olan şəkli dəyişdirmək məqsədilə edilən müdaxilə şəklidir ki, edilmə məqsədinə görə İslam fiqhində hökmü dəyişir. İslam təfəkkürünə və mental düşüncəsinə görə, Allah insanı ən gözəl şəkildə yaratmışdır. İnsan həyatının bütün məqamlarında gözəldir. Yəni, özünü cavan göstərmək və ya zahiri görünüşünü dəyişmək üçün cərrahi əməliyyata getmək dinimizə görə doğru deyildir. Burnunu kiçiltmək, ağzını daraltmaq, sifətin dərisini çəkdirmək və s. bir qədər əvvəl dediyimiz kimi, insanın fitrətinə zidd olan xüsusiyyətlərdir və təbii ki, qəbul olunmur.

Plastik əməliyyatlar müalicə məqsədi daşıdıqları zaman aşağıdakı şərtlərin gerçəkləşməsi lazımdır:

1. Alınan toxuma və ya orqan şəxsin özündən və ya izinli olaraq ölüdən alınmış olmalıdır;
2. Həkimin qənaəti nəticənin müsbət olacağı təqdirdə olmalıdır.

Anadangəlmə defekt sayılan yarımdodaq və qəzalarda meydana gələn xəsarətlərin də müalicə məqsədli plastik əməliyyat hökmünə daxil olması izah edilmişdir [22]. Sadalanan dəlillər əsasında nəticədə plastik əməliyyatlarda doğumdan sonra meydana gələn görünüş qüsurlarının müalicə məqsədilə sonradan düzəldilməsində hər hansı bir üzrün olmadığını və bu hərəkətin fitrəti dəyişdirmə mənasına gəlməyəcəyini söyləmək mümkündür.

Bədən üzərində döymə (tatuirovka) - ərəbcədə "vəşm" kəlməsilə ifadə edilən döymə Allahın yaratdığı fitrəti bəyənməyib dəyişdirmək deməkdir. Fitrəti dəyişdirməyə yönəlmiş bütün müdaxilələr isə dinimizdə haramdır. Döymə Cahiliyyə dövrünün bir qalığı ola-

---

[22].Paksu M. Fıkıh Ölçüleri. Helal Haram / İstanbul: Yeni Asiya yayınları,-1988,-s.169-170.

raq Rəsulullahın zamanında, xüsusilə də qadınlar arasında daha çox yayılmışdı. Odur ki, ən gözəl şəkildə yaradılan insanın təbii görünüşünə dəyişikliklər etməsini xoş qarşılamayan Həzrət Peyğəmbər bu cür müxtəlif işlərlə yanaşı, döyməni də qadağan etmiş və bu işi görən qadınları qınamışdır.

**Üçüncü Fəslin ikinci paraqrafı** ***"Sekulyar cəmiyyətin cinsi həyat konsepsiyasına İslam bioetikasının münasibəti"*** mövzusunu ehtiva edir. İslam insanın ictimai və mənəvi həyatını hərtərəfli əhatə etdiyi kimi, cinsi həyatını da kənarda qoymur, qoruyucu və istiqamətləndirici qaydaları ilə onu da ibadət çərçivəsinə daxil edir. İslamın cinsi həyatı tənzimləyən qaydalarının böyük əksəriyyəti yerinə yetirilməli olan əmrlər fərz və uzaq durulması lazım olan qadağalar haram formasında ifadə olunur. Məhz buna görə də həmin ilahi əmr və qadağaların müəyyən etdiyi çərçivə daxilində cinsi təlim-tərbiyə vacib bir məsələdir.

İslam dini baxımından cinsi təlim-tərbiyə işi təxirə salınmamalı və ona mənfi formada yanaşılmamalıdır. Çünki istər kişi, istərsə də qadın olsun, həddi-buluğ dövrünə çatan hər bir müsəlmanla bağlı ilahi buyruq və qadağaların əsas hissəsi cinsi hiss və istəklərlə, həmçinin onları formalaşdıran hərəkətlər, cinsiyyət üzvləri və cinsi fəaliyyətlə əlaqədardır. Məhz buna əsasən, İslamın təyin etdiyi meyarlar çərçivəsində cinsi təlim-tərbiyə fərzdir. İslami hökmlərə əsaslanaraq demək olar ki, cinsi qadağalara riayət etmək, cinsi haramlardan uzaq durmaq müsəlmanlara vacib buyurulmuşdur.

Bu bölümdə ***"Cinsi sapmalar islami nöqteyi-nəzərdən"*** araşdırılarkən homoseksuallıq və lesbiyanlıq kimi cinsəl fərqliliyin mahiyyəti, müsəlman etik görüşlərində və fiqhi müddəalarda yeri nəzərdən keçirilir.

Homoseksuallıq  üç əsas cinsi yönəlimdən (orientasiyadan) biri olub fərdin öz həmcinsinə qarşı romantik və cinsi hislər duymasına verilən addır. Homoseksuallığı sübut edən ən qədim maddi nümunələr Qədim Misirə aiddir. Belə ki, eramızdan əvvəl III minilliyə aid daş üzərində iki gənc oğlanın sevgisini təcəssüm edən şəkil təsvir edilib və belə artefaktlar bəşər tarixində homoseksuallığın

təqdir olunduğunu nümayiş etdirib.  İlkin demokratiyanın və mədəniyyətin ana beşiyi hesab edilən Antik Yunan və Roma imperiyalarında  homoseksuallıq geniş kütləni əhatə edirdi.

Homoseksuallığın günah hesab edildiyi və İslam dininin sürətlə yayıldığı Şərqdə isə vəziyyət daha mülayim olmuşdur. Belə ki, Osmanlı, İran və Hindistanda homoseksuallıq yüksək cəmiyyətlərin romantik əyləncəsi kimi qəbul edilir, şahlar, sultanlar öz saraylarında azyaşlı oğlanlarla eyş-işrətlə məşğul olur, onlara sarayda hərəmbaşı və s. kimi vəzifələr verirdilər [23]. Şərq ədəbiyyatının bir çox nümunələrində, özəlliklə divan poeziyasında və yaxud didaktik toplularda ( məsələn, Sədi Şirazinin "Gülüstan"ında) homoseksual məhəbbəti həm tərənnüm edən, həm də məkruh sayan fikirlərə rast gəlmək mümkündür.

Dini baxımdan homoseksuallığın tarixi lap uzaqlara, Lut peyğəmbərin dövrünə gedib çıxır. Belə ki, bu əməl vaxtı ilə Lut peyğəmbərin lənətlənmiş qövmünün əməli olub.  Quran homoseksuallığı "ölçüsüzlük", "həddi aşmaq" ("fahişətən") adlandırır və bunu bir zina növü olaraq görür. Həddi və ölçünü pozmaq isə fitrət və yaradılışı pozmaq deməkdir.

İslam fiqhində homoseksuallıqla bağlı fəqihlər çoxlu rəy vermişlər. Məsələn, İbn Kəsir Qurani-Kərimin yuxarıda qeyd edilən və mövzuyla uyğun olan "ən-Nisa" surəsinin 16-cı ayəsini təfsir edərkən belə demişdir: ***"Aranızda belə*** (yaramaz) ***iş tutanların hər ikisinə əziyyət verin"*** ayəsinin mənası odur ki, bu əxlaqsız əməlləri (homoseksuallığı) edənlərin hər ikisi cəzalandırılmalıdır. Məsələn, İmam Üzvümə görə, homoseksuallıq haram olmaqla yanaşı, onun faillərinə də zina cəzası deyil, tazir cəzası (mühakimə edənin uyğun hesab etdiyi bir cəza) düşür. İmam Malik və İmam Hənbələ görə, homoseksuallıqla məşğul olan şəxslərə - istər evli, istərsə subay olsunlar - evli olana tətbiq olunan rəcim cəzası düşür. İmam Şafeiyə görə isə normal zina cəzası olaraq subay olana yüz dəyənək, evli olana isə rəcim cəzası verilməlidir. Adları çəkilən məzhəblərin ho-

[23] Мец А. Мусульманский Ренессанс / Москва: Наука,-1973,-стр.286.

moseksuallığa zina cəzasını vermələrini dəstəkləyən hədis rəvayətləri də vardır.

İslam dinində homoseksuallıq qədər haram qılınan digər bir cinsi hərəkət də lesbiyanlıqdır. Lesbiyanlıq kişinin qadına etdiyini bir qadının digər qadına etməsi mənasını ifadə edir. Qadının qadınla sevişməsi, əlaqəsi mənasını verən bu hərəkət dinimizdə qəti şəkildə haramdır. Bu barədə Rəsulullahdan gələn bir hədisdə belə buyurulur: "Qadınların arasında lesbiyanlıq zinadır, haramdır"[24].

***"Şüur manipulyasiyaları və Overton pəncərəsi"*** adlanan **ikinci yarımparaqrafda** səslənən əsas fikir ondan ibarətdir ki, bu gün qarşımızda duran qlobal problemlərin hər biri İlahi mənbəyə müraciəti bir daha təsdiqləyir: bioetik pozuntular - demoqrafik partlayışa, istehsal sahələrinin azalması - aclıq və enerji böhranına, enerji resursları axtarışları - ekoloji fəlakətlərə, mənəvi dəyərlərin devalvasiyası – ailə institutunun dağılmasına gətirib çıxaracaqdır. Müasir qloballaşma dönəmində ictimai toplumların rastlaşdığı problemlər sırasında əxlaq və mənəviyyat məsələləri daha ciddi narahatçılığa yol açmışdır.

Bu manipulyasiya üsullarından birini, amerikalı elektrik mühəndisi, hüquqşünas, Makinak İctimai Siyasət Mərkəzinin vitse-prezidenti Cozef Overton açıqlayıb. O, insanlığa yad və qəbuledilməz ideyaların bu kateqoriyadan ayrılmasının, "təmizlənməsi"nin, qanunvericiliklə möhkəmləndirilməsinin və onlarla mübarizənin qadağan olunmasının yollarından birini müəyyənləşdirib. Cozef Overtonun şərəfinə "Overton pəncərəsi" və ya "Overtonun imkanlar pəncərəsi" adlandırılan nəzəriyyəyə əsasən, cəmiyyətdə istənilən ideya üçün imkanlar pəncərəsi mövcuddur. Bu pəncərə çərçivəsində istənilən nəzəriyyə geniş müzakirə, dəstək, təbliğat, nəhayət, qanunvericiliklə təsdiqlənmək imkanına malikdir. Adi insan mənəviyyatına zidd olan məsələlər əvvəlcə diskussiya mövzusu olur, bir qədər sonra aktuallığa, daha sonra reallığa çevrilərək, kütləvi şəkildə qəbul edilir və həyat norması olur. Bu, sadəcə şuur

[24] "Feyzul-qədir", 2942 nömrəli hədis (3/137).

manipulyasiyası və ya "beyinlərin yuyulub təmizlənməsi" deyil. Əslində efemer nəzəriyyənin ardıcıl şəkildə və cəmiyyətin diqqətini cəlb etmədən həyata keçirilməsi onu çox effektiv edir. Bəlkə də bu çıxışların və düşünülmüş ssenarilərin nəticəsində bəşəriyyət 2020-ci ildə qlobal miqyaslı Covid-19 pandemiyası ilə sarsıldı və ictimaiyyətin diqqətini böyük maxinasiya müəlliflərinin üzərinə çəkdi. Pandemiyanın maddi və mənəvi nəticələri barədə danışmaq hələ tezdir, lakin bu faktın siyasi və iqtisadi təxribat olduğunu, dünya əhalisinin məhvinə yönəldildiyini, kimyəvi-bioloji silah təcrübəsi kimi dəyərləndiyini inkar etmək olmaz.

Bu vəziyyəti yaradan səbəblərdən biri XX-XXI əsrin siyasi fəlsəfəsinə çevrilmiş sekulyarizm ideologiyasıdır ki, ona dair fikirlər ***"Sekulyarizmə münasibətdə İslamın tənqidi mövqeyi"*** adlı **üçüncü yarımparaqrafda** şərh olunur. Sekulyar təfəkkür dini dünyəviləşdirmək və maddiləşdirmək istəyirsə, laik təfəkkür dini ümumiyyətlə, siyasətdən ayırmaq məqsədi güdür. Sekulyarizmi dəstəkləyənlər bilərəkdən ilahi dünyagörüşlərinə etiqad bəsləməyin bütün formalarını inkar edir, qeyri-dini və ya antidini qaydaları, şəxsi əxlaq və ictimai hərəkatı təməl prinsip sayırlar. İslam alimlərinə görə, sekulyar təfəkkür Allahın varlığına diqqət yetirmədən əxlaqi və ictimai məsələləri izah etmək anlamına gəlir. Sekulyaristlər inanırlar ki, dünyanı izah etmək üçün dini dildə danışmaq lazım deyil. Əksinə, yalnız bəşər dili ilə dünyanı kəşf və bəyan etmək mümkündür. Onların fikrincə, bəşərin elm və savadı daha yaxşı dünya və daha gözəl yaşamağa yol açan amildir. Şübhəsiz, sekulyarizm təkcə bir ideologiya deyil, əksinə, R. Bellin dediyi kimi: *"Dünyada müxtəlif dinlər olduğu kimi, müxtəlif növ sekulyarizm də mövcuddur ki, hər biri fərqli fəlsəfi struktur, dəyərlər və normalar ortaya qoyur"* [25]. Əlbəttə, sekulyarizmin bütün növlərinin ortaq məxrəci onların hamısının dinlə mübarizə etməsidir.

Sekulyarizm üçün müxtəlif təməl prinsiplər deyilmişdir. Qısa şəkildə onların üçünə - sientizm, rasionalizm və humanizmə işarə

[25] Современная западная социология /Москва: Политиздат, -1990,-стр.306.

edəcək və İslamın da bunlar haqqındakı nəzərini xülasə olaraq vurğulayacağıq. *Sientizm*, yəni, həyatın bütün sahələrində elmin rolunun mütləqləşdirilməsi sekulyarizmin təməl prinsiplərindən biridir. Sekulyarizmin digər bir təməl prinsipi rasionalizmdir, yəni, insanın ehtiyaclarını ödəməkdə ağılın əsas götürülməsidir. Müxtəlif məktəbləri özündə birləşdirən *humanizmin* əsas məğzini insanı hər şeyin meyarı bilmək təşkil edir.

İslam bu prinsipləri və onları nizamlayan hüququ, yəni sekulyar hüququ qəbul etmir və təəssüf ki, bu tərs-mütənasiblik fikir ayrılığından çıxaraq qütbləşməni yaradan qlobal problemə çevrilməkdədir. Sekulyarizmlə bağlı sadalanan fikirləri müasir elm sahəsi olan bioetikaya şamil etsək o zaman belə demək olar ki, sekulyar bioetika dedikdə boietika elminin tədqiq etdiyi müxtəlif sahələrin, o cümlədən tibb sahəsinin dinlə, xüsusilə İslam dini ilə uzlaşmaması, həmçinin bu sahələrdə qazanılan elmi nailiyyətlərin tətbiqi zamanı İslam şəriətinin təlim və prinsiplərinin nəzərə alınmaması başa düşülür. Özəlliklə, müasir cəmiyyətlərdə mənəvi aşınmanın artmasına və ailə dəyərlərinin deqradasiyasına səbəb olan cinsi həyat problemlərinin həlli zamanı sekulyar hüququn mənəviyyatı üstələməsi narahatlıq doğuran disbalans vəziyyətin göstəricisidir.

***“Beynəlxalq bioetka mərkəzlərinin fəaliyyət dairələri və təcrübə metodları”*** adlanan sonuncu paraqrafda dünyanın bir çox ölkəsində yaradılmış bioetika mərkəzlərinin fəaliyyətinin öyrənilməsi vacibliyi qeyd olunur. Beynəlxalq bioetika mərkəzlərinin yaranmasında öncüllük, təbii ki, yüksək texnologiyaların daha geniş inkişaf etdiyi Qərb dünyasına aiddir. Avropada, baxmayaraq ki, əsrlər boyu ictimai həyata təsir göstərən mühüm əxlaqi-fəlsəfi sistemlər formalaşmışdır, bioetika nisbətən daha gec elm və tədqiqat sahəsi kimi qəbul edilmişdir. Bu gecikmənin səbəblərini Avropa və Birləşmiş Ştatların tibbi və təhsil sistemlərinin struktur fərqliliyi ilə izah etmək olar: Avropada professional etika məhkəmə tibbi ekspertizasının bir qolunu təşkil edir və həddindən artıq akademik ixtisaslaşma müxtəlif elmlərin toqquşduğu tədqiqatların təşkilinə mane olur. Buna baxmayaraq, bioetikaya Avropada həqiqi mənada ilk sahib

çıxanlar katolik mərkəzləri olmuşdur.

Bizə coğrafi və tarixi cəhətdən daha yaxın olan Rusiyada bioetik fikrin inkişafı əsasən XIX əsrin ortalarından, daha dəqiq desək, Moskva Universitetinin professoru M.Y.Mudrovun tərcümə etdiyi Hippokrat andının rus həkimləri tərəfindən qəbulu ilə başlamışdır. 90-cı illərdən etibarən Rusiya cəmiyyətində bioetika problemlərinə marağın artması müşahidə olunur. Belə ki, tanınmış həkimlərin, bioloqların və filosofların iştirakı ilə çoxlu sayda monoqrafiya və dərslik hazırlanır, Rusiya elmi mühiti belə hesab edir ki, hüquq cəmiyyətin mənəvi həyatından ayrılmamalı, əxlaq və ədalət normalarına söykənməlidir. Bu fikirlər daha çox Moskva və bütün Rusiya Patriarxiyası tərəfindən səslənir.

Azərbaycanda bioetikaya münasibət ölkəmiz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra, yəni keçən əsrin 90-cı illərindən etibarən formalaşmağa başlamışdır. Bioetikanın Azərbaycanda inkişafına dəstək verən beynəlxalq qurum UNESCO-dur. UNESCO - Azərbaycan əlaqələrinin inkişafında ən mühüm addım Azərbaycan Prezidenti Heydər Əliyev 1993-cü ilin dekabr ayında Fransada rəsmi səfərdə olarkən bu qurumun baş direktoru Federiko Mayorla görüşü zamanı atılmışdır. Görüşdə tərəflər öz aralarında əməkdaşlığın genişlənməsi məsələsini və onun sonrakı inkişafının perspektiv planlarını müzakirə etmişlər. UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması üçün lazımi addımlar atılmış və Ümummilli Lider Heydər Əliyev bununla bağlı 1994-cü il fevralın 21-də sərəncam imzalamışdır. Bundan sonra respublikanın müvafiq nazirlik və idarələrinin rəhbərlərindən, ziyalılardan və ictimaiyyətin digər nümayəndələrindən ibarət Milli Komissiyanın 25 nəfərlik tərkibi və daimi katibliyi formalaşdırılmışdır.

İslam Tibbi Təşkilatı ( OİMS) tərəfindən qəbul olunan İslam Tibbi Kodeksi 1981-ci ildə Küveytdə keçirilən İslam tibbinə həsr olunmuş ilk beynəlxalq konfransda qəbul edilmişdir. Həmin konfransda CİOMS – Tibb elmləri üzrə beynəlxalq təşkilatların İslami Şurası yaradılmışdır. Sonrakı illərdə OİMS – İslam Tibbi Təşkilatı Küveytdə (1982), İstanbulda (1984), Kəraçidə (1986) keçir-

diyi növbəti beynəlxalq konfranslarda müsəlman alimlərinin uşaq hüquqları, gənclərin narkotik maddələr, alkoqol və siqaret asılılığından qurtulması haqqında müvafiq tövsiyələrini hazırlamışdır. Özəlliklə, tibbi təhsil proqramlarında müasir müsəlman həkimlərin yetişdirliməsi istiqamətində mənəviyyat kontekstinin artırılmasına xüsusi diqqət ayrılmışdır.

Biotibbi texnologiyaların yaratdığı yeni etik problemlərin həlli üçün müsəlman hüquqşunasları və fiqh alimləri mütəmadi olaraq görüşlər keçirirlər. Məsələn, insan orqanlarının və toxumaların transplantasiyası problemləri Qahirədə keçirilən Tibbi hüquq üzrə III Simpoziumda (1987) və V Beynəlxalq kofransda (1988) geniş şəkildə müzakirə olunmuşdur. İslam alimləri və həkimləri eyni zamanda, surroqat analıq, uşağın cinsiyyətinin təyin edilməsi və evtanaziya problemləri haqqında müəyyən rəy birliyinə gəlmişlər. 2005-ci ilin martında Tehranda keçirilən Beynəlxalq bioetika konfransında qərara alınmışdır ki, bioetikanın həyati əhəmiyyət kəsb edən problemlərinin həlli zamanı mövcud dini-əxlaqi normalar və mədəni ənənələr mütləq nəzərə alınmalıdır.

**Nəticə** 2011-ci il mayın 31-də Bakıda YUNESKO-nun Bioetika üzrə beynəlxalq Komitəsinin 18-ci sessiyası keçirildi. Bu böyük beynəlxalq tədbirdə edilən çıxışlarda deyilirdi ki, bioetikanın əsas problemləri əxlaqın mövcud dini normalarını və mədəni ənənələri nəzərə almaqla həll edilməlidir. Bu gün bioetika problemlərinin həllinə bu və ya digər yanaşmanın əsaslandırılması sürətlə dəyişən dünyamızda insanı istiqamətləndirən siyasi, fəlsəfi və hüquqi düşüncə və axtarışların mərkəzindədir.Tədqiqatda gəlinən nəticə ondan ibarətdir ki, biotexnologiyalar və bioetika problemləri insan həyatının, ailə və cəmiyyətin əsaslarına ciddi təsir göstərdiyinə görə müsəlman teoloji məktəbinin mövqeyi tam şəkildə formalaşmalı və bəyan edilməlidir. Nəzərdə saxlamaq lazımdır ki, biotibbi problemlər olduqca mürəkkəbdir, çünki onların əsasında həm bu elmin özünün mürəkkəbliyi, həm də müxtəlif sosial qrupların müəyyən maraqları durur. Ona görə də bioloji yeniliklərin tətbiqi qaydalarını izah edərkən texnoloji, iqtisadi, siyasi və mənəvi aspektləri, onların

arasında yaranan ziddiyyətləri diqqətdə saxlamaq, dini-etik postulatların nəzəri və təcrübi əsaslarının düzgün şərh edilməsi zəruridir.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. İslam və bioetika: insan hüquqları kontekstində // AMEA İnsan hüquqları institutu "Din və etiqad azadlığı: hüquqi, siyasi və ictimai aspektlər" Beynəlxalq konfransının tezislər toplusu. Bakı-2012, s.35-37.
2. İslam biotexnologiyalar əsrində // "Dövlət və Din" jurnalı, №4-2015, s.34-42.
3. İslam fiqhinin sekulyar bioetikaya münasibəti // AMEA "İslam maarifçiliyi və müasir dövr" Beynəlxalq Konfransının materialları. Bakı-2015, s.549-558.
4. İslam və Bioetika // Monoqrafiya. Bakı - İpəkyolu nəşriyyatı, 2017. 366 s.
5. Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti // BDU AXC 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq konfransın materialları. Bakı-2018, s.70-74.
6. Tibbi etikanın formalaşmasında İslam faktoru // "Dövlət və Din" ictimai fikir toplusu, № 01/54 – 2018, s. 19-27.
7. İnsan və ətraf mühit münasibətlərinə İslamın baxışı // "Dövlət və Din" ictimai fikir toplusu, №04/57-2018, s. 20-28.
8. Azərbaycan Respublikasında bioetikanın inkişafı problemləri // "Din araşdırmaları" jurnalı, №1 (2) – 2019, s.315-326.
9. Azərbaycanda İslam mədəniyyətinin təkamül yönləri // "İslam sivilizasiyası Qafqazda" Beynəlxalq Simpoziumunun materialları. Bakı-2019, s. 102-106.
10. Городская урбанизация и концепция окружающей среды в исламской биоэтике // Материалы XV международной научно-практической конференции «Мировое научное знание

треьего тысячелетия» - Казань/ РФ-2019, с.135-144.

11. Süni mayalanma: müsəlman etikasının ilkin və son postulatları arasında // “Dövlət və Din” ictimai fikir toplusu, №02 (61)-2019, s.75-84.

12. Миротворец, патриот, лидер. Шейхуль-ислам Аллахшюкур Пашазаде // «Наука и Религия» Москва / РФ, №8-2019, с.2-4.

13. İslam bioetikasında klonlaşmaya münasibət // “İslam sivilizasiyası və elm: tarix və müasirlik” AMEA, AR DQİK və Aİİ konfransının materialları. Bakı-2019, s.76-85.

14. İslamic Bioethical Concept of Urbanization and the Environment // Хуманитарни Балкански Изследования. Българи-2019, Т.3, №3 (5), с.90-93.

15. Религиозно-этические постулаты генезиса теоретико-исторических аспектов биоэтики // Науковий вісник Ужгородского Национального Университету / серия Міжнародні Відносини. Ужгород/ Украина. Випуск №5-2019, с.118-125

16. Man and Environment in the Perspective of Islam // Fourth International Conference of European Academy of Science. Bonn / Germany – Jan.2019, pp. 149-153.

17. Этические постулаты аспектов биоэтики в ракурсе медико-биологических исследований // World Science / RS Qlobal. Warsav / Poland- Dec.2019, №12 (52), Vol.2, с. 21-27.

18. Şeyxülislam Allahşükür Paşazadə // Biblioqrafik göstərici. Bakı “Nurlar” nəşriyyatı-2019, 400 s.

19. Orqan və hüceyrə transplantasiyası problemlərinə dünya dinlərinin etik baxışları // “Metafizika” Beynəlxalq fəlsəfi və fənlərarası araşdırmalar jurnalı. Vol.2, №4, Serial 8-2019, s.27-50.

20. İslamın dini-etik nəzəriyyəsində evtanaziya, intihar və fədakarlıq // “Dövlət və Din” ictimai fikir toplusu №04(63)-2019, s.15-24.

21. Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin Azərbaycanda və İslam aləmində böyük rolu // (ərəb dilində) “Məcəllətül münəzzəmə” jurnalı, İslam Əməkdaşlıq Təşkilatının xüsusi buraxı-

lışı – 2019, s.27.

22. Bioetikanın nəzəri-tarixi aspektlərinin genezisində dini-etik postulatlar // "Sivilizasiya" elmi-nəzəri jurnalı, cild 8, №4 (44)-2019, s.40-46.

23. Qurani-Kərimdə insana dini kontekstdən yanaşma // "Mədəniyyət dünyası" elmi jurnalı, XXXVIII buraxılış-2020, s. 194-202.

24. İslam Fiqh Akademiyasının orqan və hüceyrə transplantasiyası ilə əlaqədar qərarları // "Din araşdırmaları jurnalı" №1 (4)-2020, s.269-287.

25. Qeyri-səmavi dinlərin fəlsəfi görüşlərində müasir bioetika məsələlərinə münasibət // "Dövlət və Din" ictimai fikir toplusu, №02 (65)-2020, s.12-17.

26. Artificial Insemination in the Context of Islamic Bioethics // XXIII International Scientific and Practical Conference International Trends in Science and Technology. Warsaw/ Poland-Nov.30, 2020, pp.52-61.

27. Рационалистическая концепция синтеза науки и религии в мусульманской философии // Всеукраїнське видання «ГІЛЕЯ: НАУКОВИЙ ВІСНИК», збірник наукових праць АН Украины / серия Философия; вып.162, 2021, с.

Dissertasiyanın müdafiəsi 30 İyun 2021-ci il tarixində saat 11-də Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 May 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:   25.05.2021

Kağızın formatı: 60x84 1/16

Həcm: 3.5 c.v

Tiraj: 100